ÇA
MÜASİR DÜNYA ƏDƏBİYYATI
ÇİNGİZ AYTMATOV

709

# Cəmilə

# CƏMİLƏ

Budur, mən yenə sadə bir haşiyəyə salınmış bu kiçik şəklin qabağındayam. Sabah səhər ayıla[1] getməliyəm, ancaq ona baxmaqdan hələ də doya bilmirəm. Elə bil, şəkil mənə xeyir-dua verəcəkdir.

Onu hələ heç bir sərgiyə verməmişəm. Bundan başqa, qohumlarım ayıldan yanıma gəldikdə də onu gizlətməyə çalışıram. Şəkildə utanmalı bir şey yoxdur, ancaq, bununla belə, o, sənət nümunəsi olmaqdan çox uzaqdır. Şəkil onda təsvir olunmuş torpağın özü qədər sadədir.

Şəklin dərinliyində boz payız səmasının bir parçası təsvir olunmuşdur. Uzaq dağ silsilələrinin üzərində külək ala buludları sürətlə qovalayır. İlk planda tünd-qırmızı yovşanlı step uzanır. Yenicə tökmüş yağışdan sonra hələ də qurumamış qara yol da görünür. Yolun kənarında quru, sındırılmış çiya kolları bir-birinin böyrünə girmişdir. Araba çarxlarının açdığı yolboyu iki yolçunun ayaq izləri görünür. Uzaqlaşdıqca bu izlər zəifləyir, yolçuların özləri isə, elə bil, bir addım atan kimi haşiyədən çıxacaqlar. Yolçulardan biri... Belədə mən bir az qabağa qaçıram.



Bu əhvalat mənim ilk gənclik illərimdə olmuşdu. Müharibənin üçüncü ili idi, ata və qardaşlarımız uzaq cəbhələrdə – Kursk və Oryol ətrafında vuruşurdular. O zaman biz on-onbeşyaşlı yeniyetmələr idik, kolxozda işləyirdik. Gündəlik kəndli əməyinin ağırlığı hələ möhkəmlənməmiş çiyinlərimizin üzərinə düşmüşdü. Biçin günləri daha ağır keçirdi. Həftələrlə evdə olmurduq, bütün günü və gecəni çöldə, xırmanda, ya da taxılın daşındığı stansiya yollarında keçirirdik.

Taxıl biçməkdən, sanki, oraqların da qızdığı belə qızmar günlərdən birində mən boş araba ilə stansiyadan geri qayıdırdım. İstədim, bir evə dəyim.

Dərənin lap böyründə, küçənin qurtardığı təpənin üstündə möhkəm saman hasara alınmış iki həyət durur. Həyət-bacanın yanında söyüd ağacları ucalır. Bunlar bizim

---

[1] *Ayıl* – Qırğızıstanda kənd inzibati ərazi bölgüsü

evlərdir. Ta keçmiş zamanlardan bizim iki ailə bir yerdə yaşayır. Mən özüm Böyük evdənəm. İki qardaşım var, hər ikisi məndən böyükdür və hər ikisi subaydır. İkisi də cəbhədədir və çoxdandır ki, heç birindən xəbər yoxdur.

Atam köhnə dülgərdir. Sübhün gözü açılan kimi namaz qılıb, kolxoz həyətindəki dülgərxanaya yola düşür, bir də axşamdan xeyli keçmiş qayıdırdı.

Evdə anamla bacım qalırdı.

Qonşu həyətdə, ya da ayılda Kiçik ev adlandırılan həyətdə bizim yaxın qohumlarımız yaşayırlar. Vaxtilə ulu babalarımız, ya da onların ataları doğma qardaş olmuşlar. Lakin mən onları ona görə yaxın qohum adlandırıram ki, biz bir ailə kimi yaşayırıq. Hələ babalarımızın köçərilik etdiyi, birgə köçəbə saldıqları, birgə qaramal otardıqları zamanlardan belə olmuşdur. Bu adəti biz də saxlayırdıq. Ayılda kollektivləşmə təşkil ediləndə atalarımız qonşuluqda ev-eşik saldılar. Nəinki təkcə biz, bəlkə də, iki çayın arasında ayıl boyu uzanan Aral küçəsi başdan-başa bizim nəsildəndir. Biz hamımız bir qəbilədən çıxmışıq.

Kollektivləşmədən çox keçməmişdi ki, Kiçik evin yiyəsi öldü. Arvadı və iki kiçikyaşlı oğlu qaldı. O zaman ayılda, hələ də kök salmış köhnə qəbilə adətinə görə, dul qadını oğulları ilə birlikdə ayıldan kənara buraxmaq olmazdı. Buna görə də bizim qəbilədən olan adamlar atamı dul qalmış qadınla evləndirdilər. Ulu babalarımızın ruhu da onu bu işə məcbur edirdi, çünki atam mərhumun ən yaxın qohumu idi.

Beləliklə, bizim ikinci ailəmiz yarandı. Kiçik ev öz həyət-bacası, öz qaramalı ilə müstəqil hesab olunurdu. Lakin, əslində isə, bir yerdə yaşayırdıq.

Kiçik ev də iki oğlunu orduya göndərmişdi. Böyük oğlu Sadıq elə evlənən kimi getmişdi. Gec-gec olsa da, onlardan məktub alırdıq.

Kiçik evdə, mənim "kiçi apa" yəni, kiçik ana adlandırdığım anam və onun gəlini – Sadığın arvadı qaldı, hər ikisi səhərdən axşamadək kolxozda işləyirdi. Kiçik anam xeyirxah, üzüyola, fağır bir qadındı, hər işdə: arx qazılmasında, ya da suvarmada cavanlardan geri qalmırdı. Bir sözlə, kətməni əlində möhkəm tuturdu. Bəxtindən də gəlini çox işlək idi. Cəmilə, qayınanası kimi, yorulmaq bilməyən bacarıqlı bir qız idi. Ancaq xasiyyəti bir az başqa idi.

Mən Cəmiləni çox istəyirdim. O da mənim xətrimi istəyirdi. Çox dostlaşmışdıq, ancaq bir-birimizi öz adımızla çağırmağa cəsarət etmirdik. Əgər başqa-başqa ailədən olsaydıq, əlbəttə, mən onu adı ilə çağırardım. Mən onu böyük qardaşımın arvadı kimi "cene", o da "kiçinə bala" çağırırdı. Hərçənd ki, mən kiçik deyildim və aramızdakı yaşca fərq də çox deyildi. Ancaq ayıllarda bu bir qayda idi ki, gəlinlər ərinin kiçik qardaşlarını "kiçinə bala", yaxud "mənim qaynım" çağırmalıdırlar.

Hər iki həyətin ev işləri ilə mənim anam məşğul olurdu. Hörüklərinə sap bağlayan gülməli bacım da ona kömək edirdi. Çətin günlərdə bacımın nə cür səylə işlədiyi heç zaman yadımdan çıxmaz. O, bostanın dalında hər iki həyətin quzu və buzovlarını otarır, ev həmişə isti olsun deyə, təzək – çırpı yığırdı. Anamın tənhalığını ona unutduran və onu itkin düşmüş oğulları haqqında düşündürməkdən yayındıran mənim bu fındıqburun bacım idi.



Evdə asayişə və firavanlığa görə bizim böyük ailəmiz anama minnətdardır. O, hər iki həyətin külli-ixtiyar sahibəsi, ailənin sirdaşı idi. O, çox cavan ikən bizim köçəri babalarımızın ailəsinə gəlmiş və sonra ailələri ədalətli idarə etməklə onların xatirəsini müqəddəs tutmuşdur. Ayılda hamı onunla hörmətli, insaflı, ağıllı, təcrübəli ev sahibəsi kimi hesablaşırdı. Evdə hər şeyi anam idarə edirdi. Düzünü deyim ki, ayıl sakinləri atamı ailə başçısı kimi tanımaq istəmirdilər. Adamların bu və digər münasibətlə dedikləri bu sözləri az eşitməmişdim: "Eh, yaxşısı budur ki, heç ustanın yanına getməyəsən (bizdə sənətkarları hörmətlə usta adlandırırlar). Onun işi-gücü ancaq balta işlətməkdir. Onlarda böyük ana hər şeyin başıdır. Onun yanına getsən, yaxşı olar..."

Onu deməliyəm ki, gənc olmağıma baxmayaraq, tez-tez təsərrüfat işlərinə qarışırdım. Bu, mənə ona görə müyəssər olmuşdu ki, böyük qardaşlarım cəbhəyə vuruşmağa getmişdilər. Məni də tez-tez zarafatla, bəzən də lap ciddi tərzdə iki ailənin cigiti, ailənin müdafiəçisi və dolandıranı adlandırırdılar. Mən bununla fəxr edirdim və məsuliyyət hissi heç zaman məni tərk etmirdi. Anam da çalışırdı ki, mən müstəqil olum. O istəyirdi ki, mən, hər gün dinibdanışmadan taxta yonub mişarlayan atam kimi deyil, təsərrüfatçı və fərasətli olum.

Hə, mən arabanı evin yanında söyüdün kölgəsində saxlayıb yan qayışları boşaltdım və darvazadan içəri girdim. Briqadirimiz Orozmatı həyətdə gördüm. O, həmişəki kimi, atın üstündə oturmuşdu, qoltuq ağacı da yəhərə bağlanmışdı. Anam da onun yanında durmuşdu. Nə barədə isə mübahisə edirdilər. Yaxınlaşanda anamın bu sözlərini eşitdim:

– Bu baş tutan iş deyil! Allahdan qorx, harada görünüb ki, arvad araba ilə kisə daşıya? Yox, əzizim, mənim gəlinimdən əlini çək, qoy bu vaxtadək necə işləyibsə, eləcə də işləsin. Onsuz da, gecəm-gündüzüm yoxdur. İki həyəti idarə etmək sənə zarafat gəlməsin. Yaxşı ki, qız böyüyüb... Bir həftədir ki, düzələ bilmirəm, belim ağrıyır, elə bil, keçə döymüşəm: qarğıdalı isə bax, yanır, su istəyir. – O, sinəsinə düşmüş çalmanın ucunu ara-sıra içəri salaraq, yanıqlı-yanıqlı danışırdı. O hirslənəndə, adətən, belə edərdi.

– Siz necə adamsınız? – deyə Orozmat atın üstündə yırğalanaraq özündən çıxmışdı. – Əgər mənim ayağım olsaydı, sizdən heç xahiş edərdim? Əvvəllər olduğu kimi, kisələri arabaya özüm doldurub aparardım!.. Mən də bilirəm ki, bu, arvad işi deyil. Bəs kişini haradan tapım? Buna görə də qərara gəldik ki, əsgər arvadlarından xahiş eləyək. Siz öz gəlininizə qadağan edirsiniz, böyüklərimiz isə bizim abrımızı tökürlər... Əsgərlərə çörək lazımdır, biz isə planı pozuruq. Belə də şey olar, heç yaraşan işdir?

Mən qamçını yerlə sürüyə-sürüyə onlara yaxınlaşdım. Briqadir məni görən kimi çox sevindi. Görünür ki, başına təzə fikir gəlmişdi.

– Əgər siz gəlininiz üçün belə qorxursunuzsa, onun qayını, – o, fərəhlə məni göstərdi, – heç kəsi ona yaxınlaşmağa qoymaz. Arxayın ola bilərsiniz! Seyit qoçaq oğlandır, bax, bizi dolandıran bu uşaqlardır. Darda da ancaq onlar köməyimizə çatırlar.

Anam briqadirə sözünü qurtarmağa macal vermədi.

– Ay mənim səfilim, gör bir nəyə oxşayırsan, – deyə deyindi. – Saçlarına bir bax... Atandan da heç olmaz, oğlunun başını qırxmağa da vaxt tapmır...

Orozmat anamın nəyə işarə vurduğunu tez başa düşdü.

– Yaxşı, – dedi, – qoy oğlunuz bu gün qocaların yanında qalsın. Seyit, bu gün evdə qal. Atları yemlə, səhər tezdən

isə Cəmiləyə araba verərik, bir yerdə işlərsiniz. Ancaq deyirəm ha, onun üçün sən cavabdehsən! Yaxşı, baybiçə, siz narahat olmayın, Seyit qoymaz ki, ona bir söz deyən olsun. Əgər iş o yerə gəlib çatsa, Daniyarı da onlarla göndərərəm. Siz ki onu tanıyırsınız, fağır oğlandır... Bu yaxında cəbhədən qayıtmış oğlanı deyirəm. Üçlükdə stansiyaya taxıl daşıyarsınız. O zaman kim cəsarət eləyib sizin gəlininizə toxuna bilər? Elə deyil, Seyit? Sən necə bilirsən, istəyirik ki, Cəmiləni sürücü qoyaq, ancaq anan razı olmur. Sən onu yola gətir.

Briqadirin tərifi və mənimlə yaşlı bir adam kimi məsləhətləşməsi sinəmə yatdı. Eyni zamanda Cəmilə ilə birlikdə stansiyaya getməyin necə yaxşı olacağını təsəvvürümə gətirdim. Ciddi bir ifadə alaraq anama dedim:

– Ona heç nə olmaz. Canavar yeməyəcək ki?

Mən çoxdanın sürücüsü kimi dişlərim arasından işgüzarcasına yerə tüpürdüm, çiyinlərimi ata-ata qamçını arxamca sürütləyib uzaqlaşdım.



– Bir buna bax! – deyə anam təəccübləndi və elə bil, sevindi də. Ancaq dərhal acıqla çığırdı: – Mən sənə göstərərəm, canavar nədir? Sən haranın biləni oldun. Ağıllı tapıldın da!

– O da bilməsə, bəs kim biləcək. O, sizdə iki ailənin cigitidir. Onunla fəxr edə bilərsiniz, – Orozmat qorxa-qorxa anama baxaraq mənim tərəfimi saxladı. Qorxurdu ki, təzədən onun tərsliyi tuta.

Lakin anam etiraz eləmədi. Yalnız birdən-birə əyildi, dərindən nəfəs alıb dedi:

– O, haranın cigiti oldu, hələ uşaqdır. Gecəni-gündüzü də işdə olur... Bizim cigitlər isə indi, Allah bilir, haradadırlar. Həyətlərimiz özbaşına buraxılmış köçəbələr kimi bomboşdur...

Mən onlardan çox uzaqlaşdığım üçün anamın daha nələr dediyini eşitmədim. Gedə-gedə qamçını evin küncünə elə vurdum ki, toz qalxdı, hətta əllərini şappıldadaraq həyətdə təzək yapan bacımın gülümsəməsinə də əhəmiyyət vermədən əda ilə talvarın altına keçdim. Orada çöməlib oturdum və güvəcdən su töküb, əllərimi yumağa başladım. Sonra otağa keçib bir piyalə qatıq içdim, ikinci piyaləni isə pəncərənin qabağına aparıb içinə çörək doğramağa başladım.

Anam və Orozmat hələ də həyətdə idilər. Ancaq daha mübahisə etmirdilər, yavaşcadan sakitcə söhbət edirdilər. Görünür ki, qardaşlarım barədə danışırdılar. Anam şişmiş gözlərini hərdənbir paltarının ətəyi ilə silir və görünür ki, ona təskinlik verən Orozmatın sözlərinə başı ilə dalğınlıqla cavab verərək, dumanlı nəzərlərini ağacların kəlləsindən lap uzaqlara zilləmişdi. O, elə bil, öz oğullarını burada görmək ümidində idi.

Qüssəyə qapılmış anam, sanki, briqadirin təklifi ilə razılaşmışdı. Öz məqsədinə çatmasından çox razı qalmış briqadir isə qamçı ilə atın belini şappıldadaraq sürətli yorğa yerişilə həyətdən çıxdı.

O zaman, əlbəttə, nə anam, nə də mən bu işin nə cür qurtaracağını düşünmürdük.

Cəmilənin iki atlı arabanın öhdəsindən gələ biləcəyinə mənim heç şübhəm yoxdu. Atlara o, yaxşı bələddi. O, dağ ayılı Bəkayirdə ilxıçı qızı idi. Bizim Sadıq da ilxıçı idi. Guya, bir dəfə baharda cıdır zamanı o, Cəmiləyə çata bilməmişdir. Kim bilir, bu, nə qədər doğrudur, ancaq danışırdılar ki, bu əhvalatdan sonra pərt olmuş Sadıq Cəmiləni götürüb qaçmışdır. Bununla belə, başqaları isə deyirdilər ki, onlar bir-birini sevərək evlənmişlər. Nə isə, onlar cəmi dörd ay birgə yaşamışdılar. Sonra müharibə başlamış və Sadığı orduya çağırmışdılar.

Cəmilənin uşaqlıqdan ilxı qovmasındanmı, ya da, nədənsə (o atasının yeganə qızı idi, həm qız və həm də oğul əvəzi idi), onun xasiyyətində kişilərə xas bir tündlük və hətta bəzən kobudluq da hiss olunurdu. O, kişi kimi də möhkəm işləyirdi. Qonşu qadınlarla yola getməyi bacarırdı, ancaq onu nahaq yerə bir balaca incidən kimi söyüşdə heç kəsdən geri qalmazdı. Arvadları saçlamışdı da.

Qonşular dəfələrlə şikayətə gəlmişdilər:

– Bu gəlininiz necə adamdır? Kandara qədəm basdığı heç bir həftə olmaz, ancaq, elə bil, dilotu yeyib. Nə hörmət başa düşür, nə həya.

– Elə yaxşı ki, belə adamdır! – anam onların cavabını verirdi. – Mənim gəlinim sözün düzünü adamın gözünün içinə deməyi sevir. Pıç-pıçı danışıb, altdan sancmağındansa, bu, yaxşıdır. Sizinkilər özlərini mələkə kimi göstərirlər. Ancaq, əslində, iyimiş yumurta kimidirlər: bayırdan təmiz və hamar, içərisinin iyi adamın ürəyini bulandırır.

Atam və kiçik anam Cəmilə ilə rəftarda heç zaman başqa qayınata və qayınanalar kimi sərt və öcəşkən deyildilər. Ona mehriban idilər, onu sevirdilər və yalnız bir şey arzulayırdılar ki, o, Allaha və ərinə sadiq olsun.

Mən onları başa düşürdüm. Dörd oğullarını müharibəyə göndərdikdən sonra, onlar hər iki həyətin yeganə gəlini Cəmilə ilə təskinlik tapırdılar. Buna görə də onun üstündə əsim-əsim əsirdilər. Lakin mən öz anamı başa düşmürdüm. O, adamı elə-belə sevən adamlardan deyildi. Ağır və tünd xasiyyəti vardı. Öz köhnə adət-ənənəsi ilə yaşayardı və həmişə də buna riayət edərdi. Hər il baharın girməsilə o, atamın hələ vaxtilə cavanlıqda düzəltdiyi köçəri alaçığını həyətdə qurar, içərisində ardıc budaqlarından ocaq qalayıb tüstülədərdi. O, bizi də ciddi zəhmət sevən və böyüklərə hörmət ruhunda tərbiyə edərdi. Bütün ailə üzvlərindən tələb edərdi ki, qeyd-şərtsiz ona tabe olsunlar.



Cəmilə isə bizə gəldiyi ilk günlərdən özünü başqa gəlinlər kimi aparmadı. Doğrudur, o, böyüklərə hörmət eləyir, onların sözünə qulaq asırdı. Ancaq heç zaman onların qabağında baş əymirdi. Bununla belə, başqa cavan gəlinlər kimi üzünü yana çevirən tək burnunun altında mızıldanıb söymürdü. Ürəyindəkini həmişə açıq deyərdi və öz fikrini deməkdən də çəkinməzdi. Anam tez-tez Cəmilənin tərəfini saxlayıb, onunla razılaşardı, ancaq axırıncı söz həmişə özününkü olurdu. Mənə elə gəlirdi ki, anam Cəmilənin simasında, onun ürəyinin açıq və özünün ədalətli olmasında özünə tay bir adam görürdü və gizlində fikirləşirdi ki, gələcəkdə onu öz yerinə qoysun, onu özü kimi tamhüquqlu ev sahibəsi, özü kimi baybicə və ailənin sirdaşı etsin. "Qızım, Allaha dua et ki, – deyə anam Cəmiləyə nəsihət verirdi, – sən varlı və xoşbəxt bir evə düşmüsən. Bu, sənin xoşbəxtliyindir. Qadının xoşbəxtliyi ondadır ki, uşaq doğsun və bir də evində bolluq olsun. Allaha şükür, biz qocaların topladığı bu şeylərin hamısı sənə qalacaqdır. Özümüzlə qəbirə aparmayacağıq ki! Xoşbəxtliyi yalnız o adam əlində saxlaya bilər ki, o, öz namus və vicdanını qoruya bilsin. Bunları yadında saxla və özündən göz-qulaq ol!"

Lakin Cəmilənin bəzi xasiyyətləri qayınananı açmırdı: o, uşaq kimi həddindən artıq gülüb-danışandır. Bəzən adama elə gəlirdi ki, Cəmilə heç bir səbəb olmadan gülməyə

başlayır, özü də lap hündürdən, ürəklə. İşdən evə döndükdə o, təmkinlə həyətə girməkdənsə, arxın üstündən hoppanıb qaça-qaça gəlirdi. Boş-boşuna gah bir qayınanasını, gah da o birini öpməyə başlayırdı.

Cəmilə mahnı oxumağı da sevirdi. O, həmişə böyüklərdən çəkinmədən bir şey zümzümə edirdi. Əlbəttə, bütün bunlar gəlinin ailə içərisindəki rəftarı haqqında ayılda yaranıb hifz olunan təsəvvürlərlə bir araya sığmırdı. Lakin hər iki qayınana onunla təsəlli tapırdı ki, vaxt ötdükcə Cəmilə yaşa dolub, ağıllanacaqdır: cavanlıqda elə hamı belə olmayıb məgər! Mənim üçünsə dünyada Cəmilədən yaxşısı yox idi. Bizim üçün birlikdə çox yaxşı keçirdi, heç bir səbəb olmadan gülüşür və həyətdə bir-birimizi qovurduq.

Cəmilə qəşəng qız idi. Boy-buxunlu idi. Düz cod saçlarını iki sıx və ağır hörük şəklində hörmüşdü. Ağ ləçəyini məharətlə bağlayaraq onu alnına tərəf azca endirirdi. Bu ona çox yaraşırdı, hamar sifətinin qaraşın dərisinə xüsusi gözəllik verirdi. Cəmilə güldüyü zaman onun göyümtül qara badamı gözləri gənclərə məxsus şıltaqlıq ilə parıldayırdı. Birdən-birə ədəbsiz ayıl mahnılarını oxumağa başladıqda isə, onun yaraşıqlı gözlərində qadınlara xas bir parıltı görünürdü.

Mən tez-tez görürdüm ki, cigitlər, xüsusilə evlərinə qayıtmış cəbhəçilərin gözləri onda qalırdı. Cəmilə özü də zarafat etməyi sevirdi. Doğrudur, həddini aşanların payını verirdi, ancaq, bununla belə, onun hərəkətləri mənə toxunurdu. Mən onu, kiçik qardaşların öz bacılarını qısqandığı kimi qısqanırdım. Cəmilənin yanında cavan oğlanları görəndə bir bəhanə ilə onlara mane olmağa çalışırdım. Qürurlanır və onlara elə qəzəblə baxırdım ki, sanki, bütün görkəmimlə: “Siz çox da qaqqıldaşmayın. O, mənim qardaşım arvadıdır və elə güman eləməyin ki, arxasında heç kəsi yoxdur!” – demək istəyirdim.

Belə dəqiqələrdə mən qəsdən çəkinmədən, yeri gəldi-gəlmədi, söhbətə qoşulur və Cəmilənin yan-yörəsində hərlənənləri lağa qoymağa çalışırdım. Bundan bir şey çıxmadıqda isə özümü saxlaya bilməyib xoruzlanırdım.

Cavanlar qəhqəhə çəkib gülüşürdülər:

– Sən allah, bir buna bax. Demə, onun cenesiymiş. Qiyamətmiş, heç xəbərimiz yox.

Mən canımı dişimə yığıb özümü saxlayırdım. Ancaq qulaqlarımın qızardığını hiss edirdim. Hirsimdən gözlərim də yaşarırdı. Mənim cenem – Cəmilə isə məni başa düşürdü. Özünü gülməkdən güclə saxlayaraq, ciddi görkəm alırdı:

– Bəs siz elə güman eləyirsiniz ki, cenelər küçədə tökülüb qalıb, – deyə o, cigitlərə təşəxxüslə cavab verirdi. – Bəlkə, sizdə küçəyə tökülüb, bizdə isə yox! Gedək, qaynım. Sizi görüm... – O, başını dik tutaraq, özünü göstərir və çiyinlərini lovğa-lovğa oynadırdı. Mənimlə birlikdə uzaqlaşdıqda isə sakitcə gülümsəyirdi.



Mən onun bu təbəssümündən həm pərtləşdiyini, həm fərəhləndiyini görürdüm. Bəlkə də, o zaman öz-özlüyündə belə fikirləşirdi: “Eh, səfeh! Əgər mən istəsəm, heç kəs qabağımı kəsə bilməz. Bütün ailənizlə izləsəniz də, bacara bilməzsiniz”. Belə hallarda günahkarcasına susurdum. Bəli, mən Cəmiləni qısqanırdım. Ona pərəstiş edirdim. Fəxr edirdim ki, o, mənim cenemdir. Onun gözəlliyi, müstəqilliyi, onun sərbəstliyi ilə fəxr edirdim. Biz onunla ən səmimi dost idik və bir-birimizdən heç bir şey gizlətmirdik.

Həmin günlərdə ayılda kişilər az idi. Bundan istifadə edən bəzi cavanlar qadınlarla həyasızcasına rəftar edir və onları adam yerinə qoymurdular, guya, onların sağına-soluna keçmək lazım deyil, əl eləyən kimi, kefin istədiyin qaçıb yanına gələcəkdir!

Bir dəfə ot biçini zamanı bizim uzaq qohumumuz Osman Cəmiləyə sataşmağa başladı. Osman da o biri cavanlar kimi güman edirdi ki, heç bir qadın onun sözündən çıxmaz. Cəmilə onun əlini hirslə özündən uzaqlaşdırıb, kölgəsində uzandığı tayanın altından qalxdı.

– Əl çək! – deyə incikliklə ondan üz çevirdi. – Siz ilxı dayçalarından bundan başqa nə gözləmək olar!

Tayanın altında özünü yayıb uzanmış Osman yaş dodaqlarını nifrətlə büzüşdürdü.

– Pişiyin ağzı ətə çatmayanda deyər ki, iy verir... Nə əzilib-büzülürsən, özün də lap sino gedirsən, burnunu çox dik tutma.

Cəmilə kəskin bir hərəkətlə ona tərəf döndü:

– Bəlkə də, gedirəm. Ancaq bizim taleyimiz belədir. Sən axmaq isə gülürsən. Yüz il də tək qalsam, sənin kimilərin heç

üzünə tüpürmək istəmərəm; adamın ürəyi bulanır. Müharibə olmasaydı, görüm sənin üzünə heç baxan olardımı?

– Mən də elə onu deyirəm də! Müharibə olduğu üçün sən ər qamçısı görməmisən, ona görə də belə qudurmusan. – Osman gülümsədi. – Eh, mənim arvadım olsaydın, gör avazın belə gələrdimi?..

Cəmilə dönüb ona nə isə demək istədi, lakin susdu, başa düşdü ki, onunla ağız-ağıza verməyə dəyməz. Nifrətli baxışlarla bir xeyli ona baxdı, sonra çimçişə-çimçişə tüpürdü və yabanı götürüb uzaqlaşdı.

Mən tayanın dalında, arabanın üstündə dayanmışdım. Cəmilə məni görən kimi tez dönüb başqa tərəfə getdi. Mənə elə gəlirdi ki, onu deyil, məni təhqir ediblər, mən rüsvay olmuşam. Ürəyim yana-yana onu danladım: "Axı sən niyə beləl追 ilə ağız-ağıza verirsən, niyə onlarla danışırsan?"

Cəmilə o gün axşamadək qaşqabaqlı gəzdi. Mənimlə nə bir kəlmə danışdı, nə də üzü güldü. Mən arabanı Cəmilənin yanına sürəndə, o içinə salıb büruzə vermədiyi inciklik haqqında mən heç bir şey soruşmayım deyə, yabanı tez ot qalağına sancıb onu birnəfəsə qaldırdı və qabağınca gətirərək, üzünü onun dalında gizlətdi. O, otu boşaldır və dərhal o biri ot qalağına tərəf yollanırdı. Araba tez doldu. Mən uzaqlaşanda qanrılıb geri baxdım. Cəmilənin yabanın dəstəyinə söykənərək bir neçə dəqiqə məyus durub nə haqda isə fikirləşdiyini, sonra isə təzədən işə girişdiyini gördüm.

Biz axırıncı arabanı yüklərkən Cəmilə durub günəşin batmasına xeyli tamaşa etdi, bu dəqiqələrdə o, elə bil, yer üzündə olan hər şeyi unutmuşdu. Çayın arxasında, Qazax çöllərinin qurtaracağında yorğun düşmüş axşam günəşi təndirin ağzı kimi alovlanırdı. O, göydəki, yumşaq buludları öz şəfəqi ilə qızardaraq üfüqün arasına ağır-ağır çəkilir və aşağılarda artıq qaranlığın çökdüyü bənövşəyi stepə son işığını yayırdı. Cəmilə qüruba elə dilsiz bir məftunluqla baxırdı ki, sanki, şirin yuxu görürdü. Zərif sifəti parıldayırdı, yarıaçıq qalmış dodaqlarında məsum bir gülüş vardı. Bu zaman Cəmilə hələ də ona demək istədiyim məzəmmətli sözlərə, elə bil, cavab verərək, mənə tərəf döndü və elə tərzdə danışdı ki, sanki, aramızda gedən söhbəti davam etdirirdi.

– Sən isə, kiçinə bala, onun haqqında fikirləşmə, qoy cəhənnəm olsun! O da insandır yəni... – Cəmilə bunu

deyib susdu, sönən günəşi süzərək, köksünü ötürdü və dalğın halda sözünə davam etdi. – Osman kimilər insanın qəlbini nə başa düşür? Yox, heç kəs bunu başa düşmür... Bəlkə də, belə kişilər dünyada heç yoxdur...

Mən atları döndərənədək Cəmilə bizdən kənarda işləyən qadınların yanına qaçdı. Mən onların bərkdən fərəhlə güldüklərini eşitdim. Ona nə üz verdiyini demək çətindir, günün qürubuna baxarkən, bəlkə, başına təzə bir fikir gəlmişdi, bəlkə də, yaxşı işlədiyi üçün fərəhlənmişdi. Mən arabada, hündür ot qalağının üstündə oturub Cəmiləyə baxırdım. O, ağ ləçəyini başından çəkib saldı və qollarını geniş açaraq yenicə çalınmış kölgəli çəmənlə rəfiqəsinin arxasınca qaçdı. Külək onun paltarının ətəyini yellədirdi. Birdən mənim də üstümdən qüssə götürüldü: "Osmanın laqqırtısı haqqında fikirləşməyə dəyərmi?"



– Hə-ə, getdik! – deyə mən tələsib, atları qovdum. Həmin gün briqadirin mənə tapşırdığı kimi, başımı qırxdırmaq üçün atamı gözləməyi qərara aldım. Bu müddət ərzində Sadığın məktubuna cavab yazmağa başladım. Bu işdə də bizim öz qaydamız vardı: qardaşlarım məktubu atamın adına yazırdılar, ayıl poçtalyonu onları anama verirdi. Məktubları oxumaq və cavab yazmaq isə mənim borcum idi. Mən məktubu oxumamışdan qabaq bilirdim ki, onu Sadıq yazmışdır. Çünki onun məktubları, sürüdəki quzular kimi, bir-birinə oxşayırdı. Sadıq məktubu həmişə bu sözlə başlayırdı: "Cansağlığı haqqında məktub". Sonra isə, bir qayda olaraq, yazırdı: "Bu məktubu poçtla səfalı, gül-çiçəkli Talasda yaşayan qohum-əqrəbama, istəkli, son dərəcə əziz atam Colçubaya göndərirəm..." Sonra anamın, daha sonra öz anasının, onlardan sonra isə cərgə ilə bizim hamımızın adı gəlirdi. Bütün bunlardan sonra qəbilə ağsaqqallarının, yaxın qohum-qardaşın haqqında vacib suallar başlayırdı, yalnız lap axırda Sadıq tələm-tələsik yazırdı: "Habelə arvadım Cəmiləyə salam göndərirəm..."

Əlbəttə, ata ilə ana sağ-salamat olduqda, ayılda ağsaqqallar və yaxın qohum-əqrəba sağ-salamat olduqda arvadının adını birinci çəkmək, xüsusilə onun adına məktub yazmaq yaxşı deyil, hətta ədəb xaricindədir. Təkcə Sadıq deyil, özünə hörmət eləyən hər bir kişi belə düşünürdü. Bunun haqqında danışmağa da dəyməz. Çünki

bütün ayılda bu bir qayda idi. O nəinki müzakirə edilməli idi, onun haqqında heç düşünmürdük də. Bir də buna vaxt yox idi. Axı hər bir məktubun arzusunda idik, onun gəlişi fərəhli bir hadisə idi.

Anam məni məktubu bir neçə dəfə oxumağa məcbur edərdi. Sonra onu diqqətlə cadar-cadar olmuş əllərinə alar və vərəqi əlində elə saxlayardı ki, elə bil, quşdur, indicə pırıldayıb uçacaqdır. Nəhayət, bükülməyən barmaqları ilə məktubu çətinliklə üçkünc bükərdi.

– Eh, mənim əzizlərim, sizin məktubları tilsim kimi hifz edib saxlayacağıq, – deyə onun səsi ağlamaqdan titrəyərdi, – hələ bir soruşur ki, orada atam, anam, qohumlarım necədir... Bizə nə olacaq axı. Ayılda evimizdə oturmuşuq. Siz özünüzdən danışın görək, orada nə eyləyirsiniz? Heç olmazsa, bir kəlmə də olsa, yaz ki, sağ-salamatam, vəssalam. Bizə bundan artıq şey lazım deyil...

Anam üçbucaq məktuba yenə də bir xeyli baxır, sonra onu bütün məktubların saxlandığı dəri torbaya qoyub sandıqda gizlədərdi.

Əgər Cəmilə bu zaman evdə olsaydı, məktubu oxumaq üçün ona da verərdilər. O, məktubu həmişə əlinə alanda mən onun pörtdüyünü hiss edərdim. Gözlərini sətirlərin üzərində sürətlə gəzdirərək ürəyində acgözlüklə oxuyardı. Məktubun axırına yaxınlaşdıqca onun çiyinləri sallanar, yanaqlarının qızartısı yavaş-yavaş çəkilərdi. Axırıncı sətirləri oxumadan, məktubu elə bir soyuqqanlıqla anama verərdi ki, sanki, aldığı borcu geri qaytarır.

Anam, görünür ki, gəlininin kefinin belə pozulduğunu öz bildiyi kimi yozar və ona ürək-dirək verərdi. O, sandığı bağlaya-bağlaya deyərdi:

– Niyə belə? Sevinməkdənsə, qüssələnirsən. Məgər təkcə sənin ərin əsgərdir? Bu dərd bir tək sənin deyil ki, bütün elin dərdidir. El necə dözürsə, sən də döz. Elə bilirsən ki, başqaları öz ərləri üçün darıxmır? Sən də darıx, ancaq üzə vurma, içinə sal!

Cəmilə susardı. Lakin onun inadkar, hüznlü baxışları, sanki, deyərdi: “Eh, anacan, sən heç bir şey başa düşmürsən!”

Sadığın məktubu bu dəfə Saratovdan gəlmişdi. O, orada hospitalda yatırdı. Sadıq yazırdı ki, yaralandığı üçün,

Allah qoysa, payızda evə qayıdacaqdır. Biz tezliklə onunla görüşə biləcəyimiz üçün sevinirdik.

Mən həmin günü evdə qala bilməyib xırmana getdim. Həmişəki kimi orada yatdım. Atları yoncalığa buraxıb ayaqlarını bağladım. Sədr qaramalı yoncalığa buraxmağa icazə vermirdi. Mən isə atları yaxşı saxlamaq üçün bu qaydanı pozurdum. Dərədə xəlvət bir yer tanıyırdım, gecə vaxtı burada məni heç kəs görə bilməzdi. Lakin bu dəfə atları açıb, oraya aparanda məlum oldu ki, məndən qabaq kim isə yoncalığa dörd at buraxmışdır. Bu, məni hövsələdən çıxartdı. İkiatlı arabanın sürücüsü olmaq mənə hövsələdən çıxmaq üçün haqq verirdi. Heç fikirləşmədən qərara gəldim ki, "malikanəmə" soxulmuş bu həyasızın dərsini vermək üçün atlarını yoncalıqdan çıxarıb qovum. Lakin birdən briqadirin gündüz haqqında mənə danışdığı Daniyarın iki atını tanıdım.



Sabahdan onunla birlikdə stansiyaya taxıl daşıyacağımı xatırlayıb atlara əl vurmadım və xırmana qayıtdım. Daniyar, demə, burada imiş. O, arabasının çarxlarını yenicə yağlayıb qurtarmış, indi isə oxun qaykalarını burub möhkəmlədirdi.

– Danike, dərədəki sənin atlarındır? – deyə soruşdum.

Daniyar başını ağır-ağır mənə tərəf döndərdi.

– İkisi mənimdir.

– Bəs ikisi?

– Cəmilədi-nədir, onunkudur. Sənin nəyindir, cenendir?

– Bəli, cenemdir.

– Briqadir özü onları buraya buraxdı və tapşırdı ki, gözüm üstlərində olsun...

Yaxşı ki, mən atları qovmamışam.

Gecə düşdü, dağlardan əsən axşam küləyi kəsdi. Xırmana da sakitlik çökdü. Daniyar saman tayasının altında, mənim yanımda uzandı. Lakin bir azdan sonra qalxıb çaya tərəf getdi. O yaxınlıqdakı sıldırımın üstündə dayandı. Əllərini arxasında çarpazladı və başını azca çiyninə əyərək, beləcə xeyli müddət dayanıb durdu. Onun arxası mənə tərəf idi. Onun, sanki, balta ilə yonulmuş uzun, yöndəmsiz fiqurası yumşaq Ay işığında aydın sezilirdi. O, elə bil, gecə vaxtı aşırımda daha aydın səslənən çayın gurultusuna həssaslıqla qulaq asırdı. Bəlkə də, gecənin mənim üçün aydın olmayan daha başqa səslərini və hənirtisini dinləyirdi. "O, yenə də çayın qırağında yatmaq istəyir, səfeh!" – mən gülümsündüm.

Daniyar bizim ayıla təzə gəlmişdi. Bir dəfə bir oğlan uşağı qaça-qaça kövşənliyə gəlib xəbər verdi ki, ayıla yaralı əsgər gəlmişdir. Ancaq kimdir, nəçidir, tanımır. Qiyamət qopdu. Ayılda qayda belə idi: cəbhəçilərdən biri qayıdan kimi gələn adama baxmaq, onunla əl verib görüşmək, ondan əhval tutmaq, cəbhədə qohumlarını görüb-görməməsini soruşmaq və yeni xəbərlərə qulaq asmaq üçün böyükdən tutmuş kiçiyədək hamı sürü kimi qaçıb gedirdi. Bir hay-küy qopurdu ki, ağız deyəni qulaq eşitmirdi. Hərəsi bir söz deyirdi: bəlkə, qardaşımdır qayıdıb, bəlkə də, qudamdır. Bu vaxt biçinçilər qaçıb getdilər ki, məsələnin nə yerdə olduğunu öyrənsinlər.

Daniyar, demə, əslən bizim yerlidir, bizim ayıldandır. Danışırdılar ki, uşaqlıqda o, yetim qalmış, üç il qapılarda sürünmüş, sonra isə Çaxmaq çölündəki qazaxların yanına getmişdir. Ana tərəfdən onun qohumları qazaxdırlar. Yaxın qohumları da yoxdu ki, sonralar oğlanı geri qaytarsınlar. Beləliklə də, onu hamı yaddan çıxarmışdı. Evdən getdikdən sonra nə cür yaşadığı haqda ondan soruşduqda, Daniyar qeyri-müəyyən cavab verərdi. Ancaq, hər halda, məlum olurdu ki, həyatın və yetimliyin acısını dadmışdır. Həyat Daniyarı oyuncaq topu kimi bu başdan o başa atıb-tutmuşdur. O, uzun müddət Çaxmaq şoranlıqlarında qoyun otarmışdır, yaşa dolduqda çöllərdə kanal qazmış, yeni pambıq sovxozlarında işləmiş, sonra Daşkənd ətrafında Anqren kömür mədənlərində çalışmışdır. Oradan da orduya getmişdir.

Daniyarın öz doğma ayılına qayıtmasını camaat bəyəndi. "Yad ölkələrdə nə qədər dolaşdısa da, axırda qayıtdı, demək, alnında belə yazılıbmış ki, doğma arxdan su içsin. Öz dilini də yadından çıxarmayıb. Danışığı bir balaca qazaxcaya oxşasa da, təmiz danışır!"

Ağsaqqallar deyirdilər: "Tulpar[1] dünyanın o başında da olsa, öz ilxısını axtarıb tapar. Öz vətəni, öz xalqı kimin üçün əziz deyildir! Yaxşı eləyib qayıdıb. Biz də, sənin dədələrinin ruhu da razı qaldı. Allahın köməkliyi ilə germanı yıxan kimi rahat yaşayacağıq. Onda sən də başqaları kimi ev-eşik qurarsan, ailən olar. Sənin də ocağından tüstü çıxar!"

Daniyarın babalarını xatırlayıb, onun hansı qəbilədən çıxdığını dürüst müəyyən etdilər. Beləliklə, bizim ayılda "yeni qohum" Daniyar meydana çıxdı.

---

[1] *Tulpar* – əfsanəvi qaçağan at

Budur, bir gün briqadir Orozmat, sol ayağından axsayan hündür boylu donqar əsgəri bizim yanımıza biçənəyə gətirdi. O, şinelini çiyninə ataraq, Orozmatın alçaq, yorğa yerişli madyanından geri qalmamaq üçün inadla addımlayırdı. Briqadir isə öz alçaq boyu və cəldliyi ilə uzun Daniyarın yanında dəcəl çay cüllütünü xatırladırdı. O zaman uşaqlar buna gülüşürdülər də.

Daniyarın hələ o vaxt tamam sağalmamış yaralı ayağı dizindən bükülmürdü. Buna görə o, biçinçiliyə yaramazdı. Onu bizim, uşaqların yanına otçalan maşına təyin etdilər. Açıq deyim ki, Daniyar o qədər də xoşumuza gəlmirdi. Hər şeydən qabaq onun adamayovuşmazlığı bizi açmadı. Daniyar az danışar, danışanda da hiss olunurdu ki, bu zaman o, tamam başqa şey haqqında düşünür, onun nə isə öz fikirləri var. Öz dalğın, xəyalpərvər gözlərini sənin sifətinə zilləyib baxsa da, başa düşmürdün ki, o, səni görür, ya yox. Onun haqqında belə deyirdilər: "Yazıq oğlan! Görünür ki, cəbhədən sonra hələ də özünə gəlməyib".



Maraqlı orası idi ki, Daniyar bu cür daimi dalğınlığı ilə bərabər, çox sürətlə və dəqiq işləyirdi. Kənardan baxanda adama elə gəlirdi ki, o danışıb-gülən və açıq-saçıq bir adamdır. Bəlkə, uşaqlıqda keçirdiyi ağır yetimlik onu, öz hiss və fikirlərini gizlətməyə öyrətmiş, onda belə bir təmkinlik yaratmışdır? Bəlkə də.

Daniyarın, cəhənglərində iri qırışlar olan nazik dodaqları həmişə möhkəm büzülmüş olardı, gözləri sakit-sakit kədərlə baxardı, yalnız çevik oynaq qaşları onun həmişə yorğun olan arıq sifətini canlandırardı. Hərdənbir boylanıb durar və sanki, başqalarına müyəssər olmayan bir şey eşitdiyi üçün qaşları alnına tərəf dartılar və gözləri qeyri-məlum bir sevinclə parıldardı. Sonra isə o, uzun müddət gülümsər və nəyə isə sevinərdi. Bütün bunlar bizə qəribə gələrdi. Təkcə bu deyil, onun başqa qəribəlikləri də vardı. Axşamlar biz atları açaraq, talvarın yanında oturar və aşpaz qadının bizə yemək bişirməsini gözlərdik. Daniyar isə keşik təpəsinin[1] üstünə qalxıb axşam hava qaralanadək orada oturardı.

– O, orada nə eləyir? Onu gözətçi qoyublar-nədir? – biz gülərdik.

---

[1] Keşik təpəsinin üstündən bütün ətraf görünür. Bu təpə qırğızlarda köçəri basqınlar vaxtından qalmışdır.

Bir dəfə mən maraqlandığım üçün təpənin üstünə, Daniyarın yanına qalxdım. Orada diqqəti cəlb edən heç bir şey yoxdu. Yasəmən rəngli axşam qaranlığına qərq olmuş dağətəyi step geniş uzanmışdı. Tünd, alatoran çöllər, elə bil, sakitlik içərisində ağır-ağır əriyirdi.

Daniyar mənim gəlməyimə heç qımıldanmadı; o, dizlərini qucaqlayaraq oturmuş, dalğın, lakin parlaq nəzərləri ilə qabağa baxırdı. Yenə mənə elə gəldi ki, o, mənim eşidə bilmədiyim səslərə qulaq asır. Bəzən donuxur və geniş açılmış gözləri ilə donub qalırdı. Onu daxilən nə isə üzürdü və mən elə fikirləşirdim ki, o, indicə, ancaq mənim qarşımda deyil (o, məni görmürdü), mənə məlum olmayan, böyük geniş bir varlığın qarşısında ürəyini açacaqdır. Sonra mən ona baxanda onu tanımadım; Daniyar süst və məyus halda oturaraq, elə bil, işdən sonra istirahət edirdi.

Bizim kolxozun biçənəkləri Kurkureu çayının çaylaq yerlərində səpələnmişdir. Bizdən bir az uzaqda Kurkureu çayı dərədən çıxıb, harın, quduz bir axınla vadi ilə axır. Ot çalımı dağ çaylarının daşdığı vaxtda olur. Axşamdan bulanıq, köpüklü sular artmağa başladı. Çayın güclü lərzəsindən komada gecəyarısı yuxudan oyandım. Mavi, sakitləşmiş gecə öz ulduzları ilə komaya baxırdı. Hərdən soyuq külək əsirdi, torpaq yatırdı, yalnız gurultulu çay, elə bil, bizi hədələyərək üstümüzə hücum çəkirdi.

Biz lap sahildə olmasaq da, gecə bizə elə gəlirdi ki, su lap yaxındadır, qeyri-ixtiyari olaraq qorxuya düşürdük: birdən o, komanı yuyub aparmasın? Yoldaşlarım dərin yuxuya getmişdilər. Mən isə yata bilməyib çölə çıxdım.

Kurkureu çaylağında gecə gözəl və qorxunc olur. Çəmənin o yan-bu yanında ayaqlarına çidar vurulmuş atlar qaralır. Onlar şehli otdan doyunca yeyərək, indi hərdənbir fınxırır, ehmalca mürgü vururdular. Mənimlə bir cərgədə isə Kurkureu əzilib xarab olmuş söyüd pöhrəliklərini əyərək, sahilə hücum çəkir və özü ilə bərabər daşları sürütləyib içərilərə aparırdı. Susmaq bilməyən çay qəzəbli, dəhşətli bir gurultu ilə gecənin sakitliyini doldururdu. Adamı qorxu götürürdü. Dəhşətli idi.

Belə gecələrdə mən Daniyarı həmişə xatırlayırdım. O, adətən, lap sahildə, ot qalaqlarının üstündə yatardı. Görəsən, bəs qorxmur? Çayın gurultusundan qulaqları

batmır? Görəsən, o yatır, ya yox? Nə üçün o, çayın qırağında tək yatır? Bundan nə ləzzət alır? Qəribədir, elə bil, zəmanə adamı deyil! Bəs indi haradadır? Ətrafıma baxıram, heç kəsi görmürəm. Sahil əydəmli təpələrlə uzanıb gedir, qaranlıqda dağların başları görünürdü. Orada yuxarılarda sakitlikdir və ulduzlar parıldaşırdı.

Daniyarın ayılda özünə dost tapmaq vaxtı çoxdan çatmışdı. Lakin o, əvvəlki kimi, tək-tənha idi, sanki o, dostluq, ya düşmənçilik, rəğbət, ya paxıllıq məfhumlarından xəbərsizdi. Axı ayılda o cigit hörmətdə idi ki, həm özünü, həm də başqasını qoruya bilir. Xeyirxahlıq eləyənlər və bəzən də mərdimazarlıq vuranlar, ağsaqqallardan geri qalmayıb məclis və ehsanları idarə edənlər qadınların da nəzərini cəlb edir.

Əgər Daniyar kimi adam özünü kənara çəkərək ayılın gündəlik işlərinə qaynayıb-qarışmırsa, onu bəziləri, sadəcə



olaraq, görmür, bəziləri isə mərhəmətlə deyirdilər:

– Onun heç kəsə nə zərəri, nə də xeyri dəyir. Yazıq birtəhər yaşayırsa, o da kifayətdir.

Belə adam, bir qayda olaraq, ya rişxənd, ya da şəfqət predmeti olur. Öz yaşımızdan böyük görünməyə çalışaraq, əsl cigitlərə tay olmaq istəyən biz yeniyetmələr isə, üzünə deyil, öz aramızda Daniyara həmişə gülürdük. Biz hətta ona da gülürdük ki, o, idman geyimini çayda özü yuyur. Özü də qurumamış əyninə geyir. Çünki cəmi bircə idman geyimi vardı.

Lakin qəribə idi. Daniyar üzdən, elə bil, sakit və fağır idi. Ancaq biz yenə də onunla açılışmağa cəsarət etmirdik. Ona görə yox ki, o, bizdən yaşca böyük idi (əslinə baxsan, aramızda vur-tut üç, ya dörd yaş fərqi var idi. Beləri ilə biz heç nəzakət-zad gözləmir, onlarla "sən" deyə danışırdıq) və ona görə də yox ki, sərt və təşəxxüslü idi və bu da bizi ona hörmət etməyə məcbur edirdi. Yox, onun qaradinməzliyində, qəmgin dalğınlığında nə isə bizim başa düşmədiyimiz bir şey var idi, bu da hamını lağa qoymağa hazır olan biz yeniyetmələrin əl-qolunu bağlayırdı.

Bizim özümüzü təmkinli aparmamıza, bəlkə də, baş vermiş bir hadisə səbəb oldu. Mən çox yetik bir oğlandım, öz suallarımla adamları tez-tez bezdirirdim. Cəbhəçilərdən müharibə haqqında soruşmaq isə mənim üçün əsl bir ehtirasa çevrilmişdi. Daniyar bizim biçənəyə gəldikdən

sonra təzə cəbhəçidən bir neçə söz qopartmaq üçün əlverişli fürsət axtarırdım.

Bir dəfə axşam işdən sonra ocağın başına toplaşmışdıq, yeyib-içir və rahatlıqla dincəlirdik.

– Danike, nə qədər ki yatmamışıq, müharibədən bir şey danış, – deyə mən xahiş etdim.

Daniyar əvvəlcə dinmədi və bir az da, elə bil, incimiş kimi oldu. O, ocağın oduna xeyli müddət baxdı, sonra başını qaldırıb bizi süzdü.

– Müharibədən deyirsən? – deyə o soruşdu və sanki, öz-özlüyündə düşündüklərinə cavab olaraq boğuq səslə əlavə etdi, – yox, yaxşısı budur ki, müharibədən heç xəbəriniz olmasın!

Sonra o qanrıldı, quru otlardan bir qucaq götürdü və onu ocağa ataraq, bizim heç birimizə baxmadan odu üfürməyə başladı.

Daniyar daha heç bir söz demədi. Onun dediyi hətta bu qısa cümlədən də məlum oldu ki, müharibə haqqında belə sadəcə danışmaq asan deyildir. Mən öz-özümə xəcalət çəkdim və Daniyardan müharibə haqqında daha heç bir şey soruşmadım.

Lakin ayılda Daniyarın özünə olan maraq sürətlə soyuduğu kimi, həmin gecə də tez unuduldu.

Ertəsi gün səhər tezdən Daniyarla birlikdə atları xırmana gətirdik. Bu zaman Cəmilə də gəlib çıxdı. Hələ uzaqdan bizi görən kimi çağırdı:

– Ey, kiçinə bala, mənim atlarımı buraya gətir. Bəs boyunduruqlar hanı? – O, elə bil, ömrü boyu sürücü olmuşdu, arabanı işgüzarlıqla nəzərdən keçirdi, çarx oymaqlarının yerinə yaxşı düşüb-düşməməsini ayağı ilə vurub yoxladı.

Daniyarla birlikdə arabaları sürüb Cəmiləyə yaxınlaşdıqda bizim görkəmimiz ona gülməli göründü. Daniyarın uzun, arıq ayaqları, elə bil, indicə ayağından çıxacaq genboğazlı kirza çəkmələrinin içərisində oynayırdı. Mən isə qaralıb döyənək olmuş dabanlarımla atların böyrünü döyəcləyirdim.

– Amma nə bir-birinizi tapmışsınız! – deyə Cəmilə fərəhlə başını qaldırdı. Ləngimədən bizə əmr verməyə başladı: – Cəld olun, isti düşənədək stepi ötüb-keçək!

O, atların yüyənlərindən tutub, onları arabanın yanına apardı və qoşmağa başladı. Atları özü qoşdu, ancaq bir dəfə məndən xahiş etdi ki, cilovları necə bağlamağı ona öyrədim. Daniyarı isə heç görmürdü, elə bil, yanımızda heç yerli-dibli belə bir adam yoxdur.

Cəmilənin qətiyyəti və hətta lovğa arxayınlığı Daniyarı, görünür ki, heyrətə salmışdı. O, dodaqlarını qəribə bir tərzdə bir-birinə qısaraq acıqla və eyni zamanda gizli heyrət hissi ilə Cəmiləyə baxırdı. Daniyar buğda kisəsini qapanın üstündən qaldırıb arabaya gətirəndə Cəmilə onun üstünə qabardı:

– Bu nədir, hərə özü üçün işləyəcək? Yox, dostum, belə olmayacaqdır, əlini mənə ver! Ey, kiçinə bala, sən niyə durub baxırsan, tez arabanın üstünə qalx, kisələri yerbəyer elə!



Cəmilə özü Daniyarın əlindən yapışdı və onlar birlikdə bükülmüş qolları üstündə kisəni qaldırdıqda, zavallı Daniyar utandığından qızardı. Sonra onlar hər dəfə bir-birinin əlini möhkəm sıxaraq kisələri gətirəndə başları bir-birinə toxunurdu. Bu zaman mən Daniyarın özünü çox pis hiss etdiyini və dodaqlarını möhkəm-möhkəm dişlədiyini görürdüm. O, Cəmilənin sifətinə baxmamağa çalışırdı. Cəmilə isə onu, elə bil, görmür və qapançı qızla zarafatlaşırdı. Arabaları doldurub cilovları əlimizə alanda Cəmilə hiyləgərliklə göz vurub, gülə-gülə deyirdi:

– Ey, Daniyarsan, nəsən, səninləyəm? Nə olsan da, kişisən, yolu birinci sən aç.

Daniyar yenə arabanı dinməz-söyləməz sürüb yola düşdü. “Eh, yazıq, sən nə utancaqsan!” – deyə mən fikirləşdim.

Yolumuz çox uzaq idi: iyirmi kilometr steplə keçməli, sonra da dərənin içi ilə stansiyaya getməliydik. Ancaq bir şey yaxşı idi ki, stansiyanın lap özünədək yol həmişə enişdi, atlara güc düşmürdü.

Bizim ayıl Kurkureu Böyük dağların ətəyində, çay sahilində salınmışdır. Dərəyə enənə qədər ailin tünd çətirli ağaları həmişə görünür.

Bir gün ərzində ancaq bircə dəfə stansiyaya gedib qayıda bilirdik. Səhər çıxırdıq, günortadan sonra ancaq gəlib ayıla çatırdıq.

Gün amansızcasına yandırıb-yaxırdı. Stansiyada izdihamı yarıb keçmək mümkün deyildi. Bütün vadilərdən gəlmiş

kisələrlə dolu arabalar, briçkalar[1], uzaq dağlıq kolxozlardan gəlmiş yüklü eşşəklər və öküzlər hər tərəfi tutmuşdu. Onları buraya əyinlərində gündən yanıb-solmuş paltar olan, yalın ayaqları daşa dəyib əzilmiş və dodaqları istidən çatlayıb qanamış, tozlu qara oğlanlar və əsgərlər sürüb gətirmişdilər.

Taxıl tədarükü məntəqəsinin qapısından “Taxılın hər sünbülü – cəbhəyə” şüarı yazılıb asılmışdı. Həyətdə basırıq idi, arabaların səs-küyü ətrafa yayılmışdı. Həyətlə yanaşı, alçaq hasarın arxasında parovoz, gur isti buxar buraxaraq, dəm şlakı fışqıra-fışqıra manevrə edirdi. Qatarlar qulaqbatırıcı gurultu ilə yanımızdan ötüb-keçirdi. Dəvələr köpüklü ağızlarını açaraq qəzəb və həyəcanla nərildəyib yerdən qalxmaq istəmirdilər.

Qəbul məntəqəsinin qızmış dəmir damınadək buğda tığ vurulmuşdu. Taxıl kisələrini taxta yolun üstü ilə lap damadək yuxarı qaldırmaq lazım gəlirdi. Kəsif buğda iyi, toz adamın boğazını tıxayırdı.

– Ey, cavan oğlan, bir mənə bax! – deyə yuxusuzluqdan gözləri qızarmış qəbuledici aşağıdan çığırdı. – Yuxarı apar, lap yuxarı! – O, yumruğu ilə hədələyir və söyürdü.

O, nə üçün söyürdü? Onsuz da biz bilirik ki, haraya daşımaq lazımdır, oraya da daşıyacağıq. Biz bu taxılı çiyinlərimizlə lap çöldən buraya daşıyırıq. Çöldə isə qadınlar, qocalar və uşaqlar onu əkib-becərmişlər. Orada bu saat, işin qızğın vaxtında kombayncı öz dövrünü çoxdan yaşamış, işdən düşmüş kombaynının yanında vurnuxur, qadınların beli oraq tutmaqdan ikiqat olmuş və balaca uşaqlar yerə düşmüş hər bir sünbülü ehtiyatla yığırlar.

Çiyinlərimdə daşıdığım kisələrin nə cür ağır olduğu indiyədək yadımdadır. Bu, ən güclü kişilərin işi idi. Kisələrin çiynimdən düşməməsi üçün mən dişimlə onların qırağından möhkəm-möhkəm tutaraq əyilib-düzələn, xırçıldayan taxtanın üstü ilə yırğalana-yırğalana yuxarı qalxırdım. Tozdan boğazım qəhərlənir, ağırlıq qabırğalarımı basır, gözlərimə qaranlıq çökürdü. Bir neçə dəfə yolun yarısında zəiflədiyimi, kisənin çiynimdən sürüşdüyünü hiss edərkən onu yerə tullamaq və özüm də onunla birlikdə yerə yuvarlanmaq istəyirdim. Lakin dalımca adamlar gəlirdi, onların da çiyinlərində kisə vardı, onlar mənim yaşıdlarım idi, onlar

[1] *Briçka* – yüngül və bəzən üstüaçıq minik arabası

da mən yaşda olan cavanlar, ya da əsgər arvadları idilər. Əgər müharibə olmasaydı, onları bu cür ağır yük daşımağa qoyardılarmı? Yox, belə bir işi qadınlar görəndə mənim geri çəkilməyə ixtiyarım yox idi.

Budur, Cəmilə paltarını dizindən yuxarı çəkərək qabağımca gedirdi. Onun qaraşın qəşəng ayaqlarının əzələlərinin nə cür gərildiyini, kisənin altında yay kimi əyilərək çevik bədənini nə cür səylə saxladığını görürdüm. Hərdənbir, elə bil, hər addımbaşı mənim zəiflədiyimi hiss edərək ayaq saxlayırdı.

– Kiçinə bala, özünü ələ al, az qalıb!

Onun öz səsi isə boğuq və tutqun idi.

Biz buğdanı boşaldıb geri dönəndə Daniyara rast gəlirdik. O, azca axsayaraq güclü aram addımlarla, həmişəki kimi, taxtanın üstü ilə tək və dinməz-söyləməz irəliləyirdi. Bizə çatanda Daniyar Cəmiləyə tutqun, odlu nəzər salırdı, Cəmilə isə belini düzəldərək əzilmiş paltarını sığallayırdı. O, Cəmiləyə həmişə belə baxırdı, elə bil, Cəmiləni gördüyü birinci dəfə idi. Cəmilə isə onu saya salmadan yoluna düzəlib gedirdi.



Həmişə də belə idi: Cəmilə ya ona gülür, ya da ona heç əhəmiyyət vermirdi. Bu, onun kefindən asılı idi. Yolla gedəndə ağlına nə gəlirdisə, birdən mənə çığırırdı: “Haydı, getdik!” Bunu deyib, o, qamçını başının üstündə yellədərək atları qovurdu. Mən də onun dalınca çapırdım. Biz Daniyarı ötüb-keçir, onu sıx tozun içində buraxırdıq. Doğrudur, bu, zarafat idi, ancaq hamı buna dözməzdi. Daniyar isə, görünür ki, bundan incimirdi. Biz onun yanından ötüb-keçirdik. O isə qaşqabağını tökərək arabada dayanıb bərkdən gülən Cəmiləyə heyrətlə baxırdı. Mən geri qanrılırdım. Daniyar hətta tozun içindən də Cəmilənin ardınca baxırdı. Onun baxışları mərhəmətli və yumşaq idi. Lakin mən o zaman bu baxışlardakı inadkar, gizli qüssəni sezə bilməmişdim.

Cəmilənin nə onu lağa qoyması, nə də ona qarşı tam laqeyd olması Daniyarı bir dəfə də olsun özündən çıxarmırdı. Elə bil, and içmişdi ki, hər şeyə dözsün. Əvvəllər ona yazığım gəlirdi və bir neçə dəfə də Cəmiləyə demişdim:

– Cene, niyə ona gülürsən, yazıq adamdır!

– Qoy rədd olsun, – deyə Cəmilə gülüb əlini çırpırdı. – Elə-belə, zarafat eləyirəm, bu yalquzağa heç bir şey olmaz.

Sonralar mən də Daniyara Cəmilənin özündən daha betər gülməyə başladım. Onun qəribə inadkar baxışları məni narahat edirdi. Cəmilə kisəni çiyninə atanda, bilsəniz, ona nə cür baxırdı! Doğrudan da, bu hay-küy və tünlükdə, həyətdəki basırıqda Cəmilə öz möhkəm və dəqiq hərəkətləri, yüngül yerişi ilə narahat, çığırmaqdan səsi xırıldayan adamlardan seçilirdi. Elə bil, bütün bunlar geniş düzən bir yerdə baş verirdi.

Ona baxmamaq da mümkün deyildi. Cəmilə kisəni arabadan götürmək üçün boynunu irəli uzadıb, qıvrılıb, çiynini elə qabağa verir və başını elə əyirdi ki, onun gözəl boynu bütünlüklə açıqda qalır, günəşdən bozarmış hörükləri, az qala, yerə dəyirdi. Daniyar bir bəhanə ilə ayaq saxlayır, sonra baxışları ilə onu qapıyadək ötürürdü. Yəqin, o, elə güman eləyirdi ki, bunu heç kəs görmür. Lakin mən hamısını sezirdim və bu, mənim xoşuma gəlmirdi, hətta hisslərimi bir növ təhqir edirdi: mən Daniyarı Cəmiləyə heç cür layiq bilməzdim.

“Bir fikir ver, hətta o da Cəmiləyə baxandan sonra başqaları haqqında nə demək olar!” – Bunu düşünərkən bütün varlığımı qəzəb bürüyürdü. Hələ azad olmadığım uşaq xudbinliyi yandırıcı qısqanclıq hissiylə alovlanırdı. Uşaqlar axı öz yaxın adamlarını həmişə yad adamlara qısqanırlar. Buna görə də Daniyara acımaq əvəzinə, özümdə indi ona qarşı elə ədavət hiss edirdim ki, başqaları ona güləndə mən sevinirdim.

Lakin Cəmilə ilə mənim kələklərim bir dəfə çox pis qurtardı. Taxıl daşıdığımız kisələrin arasında yun gişdən tikilmiş yeddipudluq iri bir kisə vardı. Ona bir adamın gücü çatmadığı üçün, adətən, ikilikdə qaldırırdıq. Bir dəfə xırmanda Daniyarı lağa qoymaq istədik. Həmin iri kisəni onun arabasına qoyduq, üstündən də başqa kisələri yığdıq. Yolda rus kəndlərindən birisində kimin isə bağına girib, alma dərdik və bütün yolu gülüşdük; Cəmilə almaları Daniyara atırdı. Sonra isə, adətimiz üzrə, onu ötüb-keçdik və Daniyarı toz içində buraxdıq. O, dərənin dalında, dəmir yolu keçidində bizə çatdı, yol bağlı idi. Buradan artıq birgə gedib stansiyaya çatdıq. Elə oldu ki, biz yeddipudluq kisəni tamamilə yaddan çıxartdıq. Arabaları boşaldıb qurtarandan sonra yadımıza düşdü. Cəmilə məni dəcəlcəsinə dümsükləyib

Daniyarı göstərdi. Daniyar arabada dayanıb fikirli halda kisəyə baxırdı, görünür ki, onu nə cür qaldırmağı düşünürdü. Sonra o, ətrafına baxırdı. Cəmilənin güldüyünü görüb, bərk qızardı: məsələnin nə yerdə olduğunu başa düşdü. Cəmilə çığırdı:

– Şalvarını möhkəm çək, yarı yolda düşər.

Daniyar bizə tərəf qəzəbli bir nəzər saldı. Biz hələ özümüzə gəlməmişdik ki, o, arabanın içində kisəni qabağa çəkib, dikəldib arabanın bir tərəfində yanıüstə qoydu və bir əli ilə ondan tutaraq yerə sıçradı, sonra kisəni çiyninə alıb yola düzəldi. Əvvəlcə biz özümüzü elə göstərdik ki, guya, burada çətin heç bir şey yoxdur. Başqaları da buna təəccüblənmədilər. Çünki hamı çiynində kisə gedirdi, o da onlardan biri kimi. Daniyar taxtaya çatanda Cəmilə özünü ona yetirdi:

– Kisəni yerə sal, mən axı ancaq zarafat eləyirdim.



– Keç! – deyə Daniyar səsini ucaltdı və taxtanın üstünə çıxıb getdi.

– Bir bax, aparır hey! – deyə Cəmilə özünə bəraət qazandırdı.

Cəmilə hələ də yavaşcadan gülürdü, lakin onun gülüşü qeyri-təbii bir şəkil alırdı, elə bil, özünü gülməyə məcbur edirdi.

Biz Daniyarın yaralı ayağına güc düşdüyünü gördük. Bu heç ağlımıza gəlməmişdi. Hələ indiyədək bu axmaq zarafat üçün özümü bağışlaya bilmirəm. Axı bu zarafatı mən səfeh düşünmüşdüm.

– Geri qayıt! – deyə Cəmilə güclə gülümsəyərək çığırdı.

Lakin Daniyar geri dönə bilməzdi, onun dalınca adamlar gedirdi.

Sonra nə olduğu yaxşı yadımda deyildir. Mən Daniyarın iri kisənin altında əyildiyini və başını aşağı dikərək dodağını dişlədiyini görürdüm. O, yaralı ayağını çəkərək ağır-ağır, ehtiyatla gedirdi. Atdığı hər bir addım, görünür, elə ağrı verirdi ki, o, başını tərpətməyə və bir saniyəliyə yerindəcə donub qalmağa məcbur olurdu. Taxtanın üstü ilə yuxarı qalxdıqca o daha çox yırğalanırdı. Onu kisə yırğalayırdı. Qorxub utandığımdan boğazım qurumuşdu. Dəhşətə gələrək onun yükünün ağırlığını və ayağındakı dözülməz ağrını öz vücudumda hiss edirdim. Budur, o, yenə yırğalandı, başını hərlədi. Gözlərimə qaranlıq çökdü.

Özümə gələndə kimsə əlimi elə sıxdı ki, sümüklərim şıqqıldadı. Mən Cəmiləni birdən-birə tanımadım. Onun geniş açılmış gözləri bərəlmiş, dodaqları isə yenicə gülüb qurtardığı üçün hələ də əsirdi. İndi təkcə biz deyil, hamı, qəbuledici də taxtanın aşağısına yüyürüb gəldi. Daniyar iki addım da atıb kürəyindəki kisəni düzəltmək istəyirdi ki, yavaş-yavaş dizüstə çökməyə başladı. Cəmilə üzünü əlləri ilə örtdü.

– Tulla! Tulla, kisəni! – çığırdı.

Daniyar daldan gələn adamları əzməmək üçün kisəni çoxdan bəriböyrü üstə yerə yıxa bilərdi, ancaq, nədənsə, bunu etmirdi. Cəmilənin səsini eşidən kimi özünü qabağa verdi, ayağını düzəldib, bir addım da irəli atdı və təzədən yırğalandı.

– İt oğlu, kisəni buraxsana! – deyə qəbuledici çığırdı.

– Tulla! – hamı çığırırdı. Daniyar bu dəfə də yerində möhkəm durdu.

– Yox, o tullamayacaq! – deyə kimsə inamla pıçıldadı.

Hər şey məlum oldu. Taxtanın üstü ilə onun ardınca gedənlər və habelə yerdə duranlar da gördülər ki, o, kisə ilə qarışıq yerə yıxılmayınca kisəni tullamayacaqdır. Ətrafa dilsiz bir sükut çökmüşdü. Bayırdan, divarın arxasından parovozun hərdənbir fit səsi eşidilirdi. Daniyar heç bir şey eşitmədən, yırğalana-yırğalana, ayağının altındakı taxtanı əyərək, yuxarıya, qızmış dəmir dam üstü ilə qalxırdı. Hər iki addımdan bir müvazinətini itirərək durur və təzədən qüvvə toplayaraq yoluna davam edirdi. Arxasınca gedənlər də öz addımlarını onun addımlarına uyğunlaşdırmağa çalışdıqlarından tez-tez durmalı olurdular. Bu, adamları taqətdən və gücdən salırdı. Lakin heç kəs dillənib bir söz demirdi, onu söymürdü. Adamlar, elə bil, gözəgörünməz iplə bağlanaraq, bir-birinin həyatından asılı olduqları qorxulu, sürüşkən taxtanın üstü ilə öz yüklərini daşıyırdılar. Onların razılaşdırılmış səssizliyi və yeknəsəq yırğalanmalarında vahid ağır bir ahəng vardı. Daniyarın arxasınca bir addım atır, daha bir addım. Onun arxasınca irəliləyən bu əsgər arvadı dişlərini qıcırdaraq iztirab və yalvarışla Daniyara baxırdı. Onun özünün də ayaqları bir-birinə dolaşırdı, lakin o, Daniyar üçün dua oxuyurdu.

Taxtanın maili hissəsi az qalmışdı, tezliklə qurtaracaqdı. Lakin Daniyar budur, yenə də yırğalandı, yaralı ayağı artıq

ona tabe olmurdu. O, kisəni yerə buraxmasaydı, indicə yıxılacaqdı.

– Yüyür, daldan kömək elə! – deyə Cəmilə mənə çığırdı, özü isə qollarını qabağa uzatdı. Sanki, bununla Daniyara kömək etmək istədi.

Mən taxtanın üstünə qalxdım. Adamların və kisələrin arasından sıxılıb keçərək Daniyara çatdım. O, dirsəyinin altından mənə baxdı. Qaralmış tərli alnının damarları çıxmışdı. Qan dolmuş gözləri qəzəblə mənə zilləndi. Mən kisədən yapışmaq istədim.

– Get! – deyə Daniyar xırıltılı, qəzəbli səslə çığırdı və yoluna davam etdi.

Daniyar ağır nəfəs alaraq, axsaya-axsaya aşağı düşəndə onun qolları yanına düşmüşdü. Hamı dinməz-söyləməz aralanıb, ona yol verdi. Qəbuledici isə özünü saxlaya bilməyib çığırdı:



– Cavan oğlan, sən axmaqlamısan-nədir? Mən məgər insan deyiləm, sənin buğdanı aşağıda boşaltmağına icazə verməzdim? Bu ağırlıqda kisələri niyə daşıyırsan?

– O, mənim öz işimdir, – deyə Daniyar yavaşcadan cavab verdi.

O tüpürüb arabaya tərəf getdi. Biz gözümüzü qaldırıb baxmağa da cəsarət etmirdik. Daniyarın axmaq zarafatımızdan belə ürəkdən inciməsindən həm xəcalət çəkir, həm də ona acığımız tuturdu.

Bütün gecəni dinməz-söyləməz yol getdik. Daniyardan ötrü bu, adi bir şeydi, buna görə də biz başa düşmürdük ki, o, bizdən incimişdir, ya da bu hadisəni yadından çıxarmışdır. Lakin bizim üçün ağır idi, vicdan əzabı çəkirdik.

Səhəri dəyirmanda arabaları yüklərkən Cəmilə o başıbəlalı kisəni götürüb ayağının altına qoydu və şappaladı.

– Al, özünə qismət olsun! – deyə o, parçalanmış kisəni təəccüblənmiş qapançı qadının ayaqlarına tərəf tulladı, – briqadirə de ki, bir də belələrini soxuşdurmasın!

– Nə eləyirsən? Sənə nə olub?

– Heç nə!

Ertəsi gün Daniyar incikliyini heç nə ilə büruzə verməyib özünü çox sakit və təmkinli apardı, ancaq əvvəlkindən çox axsayırdı, xüsusilə kisələri qaldırdığı zaman. Görünür ki, dünən yarası bərk açılmışdı. Bu da onun qarşısında günah-

kar olduğumuzu həmişə yadımıza salırdı. Əgər o, bircə ağız gülsəydi rahat olardıq və bununla da, bizim aramızdakı küsülülük unudulub gedərdi.

Cəmilə də özünü elə aparırdı ki, guya, heç bir şey olmamışdır, özünü təkəbbürlü tutub arabir gülsə də, hiss eləyirdim ki, bütün günü özündə deyildir.

Biz stansiyadan qayıdanda çox gec idi. Daniyar qabaqda gedirdi. Xoş gecə idi. Avqust gecələrinə, onların uzaq, eyni zamanda yaxın, həddindən artıq parlaq ulduzlarına kim bələd deyildir; hər bir ulduz göz deşirdi. Onlardan kənarlarını, sanki, qırov basmış, başdan-ayağa soyuq şüalarla parıldaşan birisi qaranlıq göydən sadəlövh bir təəccüblə yerə baxırdı. Biz dərənin içi ilə gedirdik və mən gözlərimi uzun müddət ondan çəkə bilmirdim. Atlar həvəslə evə yorturdular, çarxlar çınqıllıqda xırçıldayırdı. Külək, çiçəkləmiş acı yovşan iyini, yetişmiş taxılın güclə duyulan ətrini özü ilə bərabər gətirərək ətrafa yayırdı. Bu, qatran və tərləmiş qoşqu alətlərinin iyinə qarışaraq adamın başını hərlədirdi.

Yolun bir tərəfindən üstünü itburnu kolları basmış kölgəli qayalar sallanıb durur, o biri tərəfində isə, aşağıda söyüdlük və qovaq pöhrəlikləri arasında susmaq bilməyən Kurkureu çayı ləpələnirdi. Arxada, harada isə körpünün üstündən gurultu ilə qatarlar keçib gedir və uzaqlaşdıqca çarxların taqqıltısını da uzun müddət öz arxasınca çəkib aparırdı.

Sərində getmək, atların yırğalanan bellərinə baxmaq, avqust gecəsini dinləmək, onun ətrini duymaq xoş idi! Cəmilə məndən qabaqda gedirdi. Cilovları buraxaraq ətrafa baxa-baxa yavaşcadan zümzümə edirdi. Mən başa düşürdüm, bizim sükutumuz onu darıxdırmışdı. Belə gecədə susmaq mümkün deyildi, belə gecədə adam oxumaq istəyirdi!

Cəmilə oxudu. Bəlkə də, Daniyarla olan əvvəlki səmimiliyimizi geri qaytarmaq, onun qarşısındakı günahkarlıq hissini özündən uzaqlaşdırmaq üçün oxuyurdu. Onun səsi cingiltili və öcəşkən idi. O, "İpək yaylıq sallayıram sənə", ya da "Uzaq yoldadır mənim əzizim" kimi adi ayıl mahnılarını oxuyurdu. Cəmilə çoxlu mahnı bilirdi və onları elə sadə və ürəklə oxuyurdu ki, qulaq asana ləzzət verirdi. Lakin birdən o, mahnını kəsib Daniyara tərəf çığırdı:

– Ey, Daniyar, bir şey oxusana! Axı sən də bir cigitsən, ya yox?

– Oxu, Cəmilə, oxu! – deyə Daniyar atları azca saxlayaraq utancaqlıqla cavab verdi. – Mən sənə qulaq asıram, iki qulağım var, ikisini də satın almışam!

– Elə bilirsən ki, bizim qulağımız yoxdur. Oxumaq istəmirsən, oxuma, heç lazım da deyil! – Bunu deyib Cəmilə təzədən oxumağa başladı.

Oxumağı ondan nə üçün xahiş elədiyini Allah bilir. Bəlkə də, elə-belə. Bəlkə də, onu söhbətə tutmaq istəyirdi? Əslinə baxsan, Cəmilə onunla danışmaq istəyirdi. Çünki bir az keçdikdən sonra o, yenə Daniyarı səslədi:

– Daniyar, de görüm, heç sevmisənmi?

Daniyar dinmədi, Cəmilə də susdu.

"O da oxumağı xahiş eləməyə adam tapdı da", – deyə mən gülümsündüm.

Yolla kəsişən çayın yanında atlar nallarını yaş gümüşü çay daşlarına çırparaq sürətlərini azaltdılar. Çay keçidini ötdükdən sonra Daniyar atları qamçıladı və gözlənilmədən donuq, kələ-kötür bir səslə oxumağa başladı:



Dağlarım, mavi pənbə dağlarım,
Babalarımın torpağı, atalarımın məskəni!

Birdən onun dili dolaşdı, öskürdü, sonrakı iki misranı dərindən sinədən gələn, bir az da xırıltılı səslə oxudu:

Dağlarım, mavi pənbə dağlarım
Beşiyim mənim...

Onun səsi yenə birdən kəsildi. Sanki, nədənsə qorxub susdu.

Mən onun necə karıxdığını təsəvvür eləyirdim. Lakin onun bu ürkək, qırıq-qırıq oxuduğu mahnıda nə isə xariqüladə bir həyəcan vardı. Səsi də, görünür, yaxşı idi. Heç inanmaq olmazdı ki, oxuyan Daniyardır.

– Bir gör ha! – deyə mən özümü saxlaya bilmədim.

Cəmilə də öz heyrətini bildirdi:

– Bəs sən bu vaxtadək harada idin? Oxu, oxu, ağıllı-başlı oxu!

Qabaqda işıq görünürdü. Demək, dərədən vadiyə çıxırdıq. Oradan külək əsirdi. Daniyar təzədən oxumağa başladı. Əvvəlcə çəkinə-çəkinə başladı, sonra səsi yavaş-

yavaş güclənib, bütün dərəni bürüdü, uzaq qayalarda əks-səda verdi.

Məni hər şeydən əvvəl heyrətə salan mahnının özünün ehtiras və arzu ilə dolu olması idi. Mən o zaman da və indi də bilmirəm, daha doğrusu, təyin edə bilmirəm ki, başqasında ən gizli xəyalları belə canlandıran, bu cür həyəcan yarada bilən təkcə bu səsdirmi, ya da insan qəlbindən gələn başqa daha mühüm bir şeydir.

Daniyarın mahnısını, heç olmasa, birtəhər oxuya bilsəydim! Bu mahnıda söz, demək olar ki, yoxdur. O, böyük insan qəlbini sözsüz açıb göstərirdi. Bu vaxtadək və bundan sonra da mən heç zaman belə mahnı eşitməmişəm. O nə qırğız, nə də qazax mahnılarına oxşayırdı, onda həm birincidən, həm də ikincidən nə isə vardı. Daniyarın mahnısı hər iki yaxın xalqın ən yaxşı mahnılarını özündə toplamış və onları özünəməxsus şəkildə vahid və təkraredilməz bir mahnıda birləşdirmişdi. Bu gah qırğız dağları kimi yüksələn, gah da qazax stepləri kimi geniş yayılan dağların və steplərin mahnısı idi.

Mən dinlədikcə heyrətə düşürdüm: “Daniyar gör nə Daniyarmış! Kim bunu deyə bilərdi?”

Biz artıq steplə – yumşaq hamar yolla gedirdik. Daniyarın mahnısı indi daha geniş yayılır, yeni-yeni havalar qəribə bir çevikliklə bir-birini əvəz edirdi. O, doğrudanmı, belə çox mahnı bilir? Ona nə olmuşdur? Elə bil, o, bu günü, bu saatı gözləyirmiş!

Onun adamlarda heyrət və istehza doğuran qəribə hərəkətləri – xəyalpərəstliyi, yalqızlığa meyli, qaradinməzliyi birdən-birə mənim üçün aydın oldu. Mən indi başa düşdüm ki, o, nə üçün bütün axşamları çıxıb keşikçi təpəsində oturur, nə üçün gecələr çayın qırağında tək qalır, nə üçün başqalarının eşidə bilmədiyi səslərə həmişə qulaq asır və nə üçün bəzən birdən-birə gözləri parıldayır, adətən, səksəkəli qaşları niyə yuxarı dartılır. O, qəlbən vurğun adamdır. Həm də hiss edirdim ki, o, sadəcə olaraq, başqa bir adama vurulmamışdır. Onun məhəbbəti başqa, böyük məhəbbət idi. Bu, həyata, torpağa məhəbbət idi. Bəli, o, bu məhəbbəti özündə, öz mahnısında gizlətmiş, onunla yaşayırdı. Laqeyd adam, nə cür səsə malik olsa da, bu cür oxuya bilməzdi.

Mahnının axırıncı əks-sədası, elə bil, sönəndə onun yeni titrək həyəcanı mürgüləyən stepi, sanki, oyadırdı. Doğma havanın əzizlədiyi step də müğənnisini minnətdarlıqla dinləyirdi. Biçini gözləyən yetişmiş göy zəmilər yırğalanır, sübh parıltıları çöldə oynaşırdı. Dəyirmandakı qocaman söyüdlərin yarpaqları xışıldayırdı. Çayın o tərəfindən tarla düşərgələrinin ocaqları tüstülənir və kim isə sahildə bir kölgə kimi ayıla tərəf səssiz çapır, gah bağların arasında itib-batır, gah da görünürdü. Külək oradan alma, çiçəkləyən sütül qarğıdalı ətrini və quru təzək iyini gətirirdi.

Daniyar ürəkdən xeyli oxudu. Füsunkar avqust gecəsi də susaraq onu dinlədi. Hətta atlar da bu ecazkarlığı pozmaqdan qorxaraq çoxdan aramla getməyə başlamışdı.

Daniyar birdən mahnısını lap zil yerində kəsdi və qıy vuraraq atları dördnala çapdı. Mən güman elədim ki, Cəmilə də onun dalınca çapacaqdır, ona görə də hazırlaşdım, lakin o heç qımıldanmadı da. Başını çiyninə əyərək, necə oturmuşdusa, eləcə də qalmışdı. Elə bil, hələ də harada isə havada dolaşan səslərə qulaq asırdı. Daniyar uzaqlaşıb getdi. Biz isə lap ayıladək bir kəlmə də dinib-danışmadıq. Bir də axı danışmaq lazım idimi? Hər şeyi hər zaman sözlə demək mümkün deyildir...

O gündən bizim həyatımızda, sanki, nə isə dəyişmişdi. Mən indi həmişə xoş bir şey gözləyirdim. Səhər tezdən xırmanda arabaları yükləyir, stansiyaya gəlir, qayıdanbaş yolda Daniyarın mahnılarına qulaq asmaq üçün stansiyadan tez çıxmağa səbrimiz çatmırdı. Daniyarın səsi mənim daxilimə çökmüşdü, məni addımbaşı təqib edirdi: bu mahnı ilə mən səhərlər yaş, şehli yoncalıqlarla buxovlanmış atların yanına qaçırdım. Günəş isə gülümsəyə-gülümsəyə dağların arasından qalxaraq məni qarşılayırdı. Mən bu səsi qoca xırmansovuranların sovurduğu qızıl buğdanın xəfif xışıltısında, step ənginliklərində, tənha çalağanın rəvan uçuşunda eşidirdim. Gördüyüm və eşitdiyim hər şey mənə Daniyarın mahnısını xatırladırdı.

Axşamlar dərə ilə gedəndə mənə elə gəlirdi ki, başqa bir aləmə qədəm qoyuram. Gözlərimi yumaraq Daniyara qulaq asdıqca uşaqlıqdan mənə tanış olan doğma mənzərələr gözümün qabağında canlanırdı; gah zərif ağ-mavi buludların bahar karvanı alaçıqların üzərində durna qatarı

kimi uçuşur, gah ilxılar uğultu salan torpaqla kişnəyə-kişnəyə yay örüşlərinə buraxılır, yalları vurulmamış, gözləri vəhşi qara bir atəşlə oynayan cavan ayğırlar qürur və harınlıqla çaparaq analarının yanına qaçır, gah qoyun sürüləri sakit bir axın kimi təpələrə yayılır, gah qayadan qopan şəlalə qaynayıb qarışaraq öz parıltısı ilə göz qamaşdırır, gah çayın arxasındakı stepdə günəş asta-asta çiya pöhrənlikləri üzərinə enir və üfüqün odlu haşiyəsi ilə çapan tənha uzaq atlı isə, elə bil, günəşin ardınca gedirdi (o, sanki, əlini uzadan kimi günəşə çatacaqdı), o da kolluq və qaranlıqlarda batıb qərq olurdu.

* * *

Çayın arxasında uzanan Qazax stepi çox genişdir. O bizim dağların hər iki tərəfi ilə uzanmışdır; sərt və adamsızdır...

Lakin müharibənin başladığı həmin unudulmaz yay step, sanki, cana gəldi, orduya yararlı at ilxılarının qopardığı tozanaq onun üzərini bürüdü. Çaparlar sağa-sola çapmağa başladılar. O biri sahildən çapar qazaxın yoğun çoban səsiylə çığırdığı yadımdadır:

– Qırğızlar, yəhərlənin, düşmən gəlmişdir! – O, çapa-çapa yoluna davam edərək tozanağın, qızmar ilğımların içində gözdən itdi.

Step hamını ayağa qaldırdı, bizim ilk süvari polklarımız sərt, təntənəli uğultu içərisində dağlar və dərələrlə hərəkətə gəldi. Minlərlə üzəngi cingildədi, minlərlə cigit gözlərini stepə dikdi, qabaqda al bayraqlar dalğalanırdı, arxada atların dırnaqlarından qopan tozanağın dalında arvadların və anaların kədərli-kədərli ağlaşması torpağa qarışırdı: “Step sizə yar olsun, bahadırımız Manasın ruhu sizin köməyinizə çatsın!”

Xalqın müharibəyə getdiyi yerdə kədərli cığırlar, yollar qalırdı!..

Daniyar öz mahnısıyla torpağın gözəlliyini və həyəcanını, bütün bu aləmi gözlərimin qabağında canlandırdı. O, bu mahnıları harada öyrənmişdi, kimdən eşitmişdi? Mən başa düşürdüm ki, yalnız öz torpağına uzun illər ürəkdən həsrət qalanlar, bu məhəbbətin iztirabını çəkənlər onu belə sevə bilərdilər. O oxuyanda mən onun özünün də balaca

oğlan ikən step yollarıyla dolaşdığını görürdüm. Bəlkə, bu vətən mahnıları elə o zaman onun qəlbində yaranmışdı? Bəlkə də, bunları müharibənin odlu yollarıyla addımlayanda bəstələmişdir.

Daniyarı dinləyəndə, insan torpağı belə sevdiyinə görə, üzüüstə yerə düşüb onu bir oğul kimi qucaqlamaq istəyirdim. Mən o zaman ilk dəfə hiss etdim ki, içərimdə nə isə yeni bir duyğu yaranmışdır, lakin onun nə olduğunu hələ bilmirdim, lakin o, yenilməz bir şeydi, o, özünü ifadə etmək ehtiyacı idi, həm də elə ifadə etmək ki, dünyanı təkcə özün görüb hiss eləməyəsən, bəlkə də, öz gördüklərini, öz düşüncə və duyğularını başqalarına yetirə biləsən, torpağımızın gözəlliyi haqqında başqalarına Daniyarın bacardığı kimi ilhamla danışasan. Mən naməlum bir şey qarşısında qorxu və sevincdən donub qalmışdım. Lakin o zaman hələ başa düşmürdüm ki, əlimə fırça almaq lazımdır.



Mən uşaqlıqdan şəkil çəkməyi sevirdim. Dərs kitablarının şəkillərinə baxıb çəkirdim və uşaqlar deyirdilər ki, "lap özüdür ki var". Məktəbdə divar qəzetimizə şəkillər çəkib gətirəndə müəllimlər də məni tərifləyirdilər. Sonra müharibə başladı, qardaşlarım orduya getdilər, mən də məktəbi buraxdım və bütün yaşıdlarım kimi kolxoza işləməyə getdim. Rəngləri və fırçanı yaddan çıxardım və heç ağlıma gəlmədi ki, bir vaxt yenə onları yada salacağam. Daniyarın mahnıları isə qəlbimi yerindən oynatdı. Mən, elə bil, yuxuda idim və dünyaya elə heyrətlə baxırdım ki, sanki, hər şeyi ilk dəfə idi ki, görürdüm.

Cəmilə də birdən elə dəyişdi ki! Elə bil, o diribaş dillidilavər, gülüb-danışan qız deyildir. Parlaq bahar qüssəsi onun sönük baxışlarını bürüdü. Yolla gedərkən o, həmişə nə haqda isə möhkəm düşünürdü. Dodaqlarında həyəcanlı, xəyali bir təbəssüm dolaşırdı. Yalnız özünə məlum olan yaxşı bir şeyə sakitcə sevinərdi. Elə vaxtlar olurdu ki, kisəni çiyninə alıb, naməlum bir ürkəklik içində yerindəcə duruxub qalırdı, sanki, qarşısını gurultulu bir sel kəsdiyi üçün bilmir onu keçsin-keçməsin. Daniyardan həmişə yan gəzirdi, onun gözlərinə baxa bilmirdi.

Bir dəfə xırmanda Cəmilə zəif və əzablı bir ovqatı təlxəkliklə ona dedi:

– Bu gimnastyorkanı əynindən bir çıxarsana!

Cəmilə gimnastyorkanı çayda yuyub, qurutmaq üçün sərdi və özü də yanında oturub, ovucları ilə onu uzun müddət hamarladı, başını buladı və yenə də sakit və qüssəli halda onu hamarlamağa başladı.

Bu müddətdə Cəmilə yalnız bir dəfə bərkdən qəhqəhə çəkib güldü, gözləri əvvəlki kimi parıldadı. Bir dəfə yonca tayası vurmaqdan qayıdan bir dəstə gənc qadın, qız və cigit – keçmiş cəbhəçilər səs-küylə xırmana baş çəkdilər. Cigitlər zarafatla yabalarını göstərib dedilər:

– Ey, ağalar, buğda çörəyini təkcə özünüz yeməyin! Bizi də qonaq edin. Eləməsəniz, çaya tökəcəyik!

– Bizi yaba ilə qorxutmayın! Öz rəfiqələrimi qonaq eləyə bilərəm, siz isə öz qeydinizə qalın! – deyə Cəmilə hündürdən səsləndi.

– Məsələ ki bu yerə çatdı, hamınızı çaya tökəcəyik!

Qızlar və oğlanlar əlbəyaxa oldular. Onlar çığıra-çığıra və gülüşə-gülüşə bir-birlərini suya itələməyə başladılar.

– Yaxasından yapış, çək! – deyə Cəmilə hamıdan bərk gülərək, yaxasını hücum edənlərdən tez və çevikliklə qurtara bilirdi.

Qəribə işdi, cigitlər, elə bil, təkcə Cəmiləni görürdülər. Hərə çalışırdı ki, onu tutub özünə tərəf çəksin. Budur, birdən-birə üç cavan onu tutub sahilə gətirdi.

– Öp, yoxsa çaya salarıq.

– Hə, yırğala!

Cəmilə qəhqəhə çəkərək çırpınır, başını dala atıb gülə-gülə öz yoldaşlarını köməyə çağırırdı. Onlar isə sahildə hay-küylə qaçışaraq, suya düşmüş ləçəyini tutmağa çalışırdılar. Cigitlər qəhqəhə çəkərək Cəmiləni suya atdılar. O, islanmış saçları pərakəndə halda sudan çıxdı. O, indi əvvəlkindən daha gözəl görünürdü. İslanmış çit paltarı bədəninə yapışaraq, onun yuvarlaq qüvvətli sağrısını, cavan sinəsini aşkara çıxarmışdı. Cəmilə özü isə heç bir şey sezməyərək gülür və yırğalanırdı, onun qızarmış sifətindən şırıltı ilə su süzülürdü.

– Öp! – deyə cigitlər əl çəkmirdilər.

Cəmilə onları öpür və təzədən suya yuvarladılırdı. Sonra yenə islanmış ağır saçlarını dala ataraq gülürdü.

Gənclərin bu əyləncəsinə xırmandakılar hamı gülürdü. Qoca xırmansovuranlar kürəkləri bir tərəfə ataraq yaşaran gözlərini silir və onların qara sifətlərindəki qırışlar fərəhlə

işıldayır, bir anlığa gəncləşib canlanırdı. Mən də bu dəfə Cəmiləni cigitlərdən qorumaq haqqında olan qısqanclıq borcumu unudaraq ürəkdən gülürdüm.

Təkcə Daniyar gülmürdü. Mən təsadüfən onu görüb susdum. O, ayaqlarını geniş açaraq, xırmanın qırağında tək-tənha durmuşdu. Mənə elə gəldi ki, o, Cəmiləni cigitlərin əlindən qurtarmaq üçün indicə yerindən qopub onlara tərəf atılacaqdır. O, gözlərini ayırmadan, kədərli, həyəcanlı baxışlarla Cəmiləyə baxırdı. Bu baxışlarda həm fərəh və həm də qüssə var idi. Bəli, onun səadəti də, dərdi də Cəmilənin gözəlliyində idi. Cigitlər onu özlərinə tərəf çəkib, hər birini ayrı-ayrı öpməyə məcbur etdikdə o, başını aşağı dikdi və getmək üçün təşəbbüs etdi, ancaq getmədi.

Bu zaman Cəmilə də onu gördü. Tez gülməyini saxladı və başını aşağı saldı.



– Bəsdir, əyləndik! – deyə o, birdən-birə həddini aşmış cigitləri saxladı.

Kim isə yenə onu qucaqlamağa cəhd etdi.

– Əl çək! – deyə Cəmilə onu itələyib özündən araladı, qanrılıb Daniyara tərəf ötəri, günahkar bir nəzər saldı və paltarını sıxmaq üçün kolluqların içinə qaçdı.

Onların münasibətlərində hələ çox şey mənim üçün aydın deyildi və etiraf edirəm ki, bu barədə düşünməyə də qorxurdum. Lakin Cəmilənin özünün Daniyardan aralı gəzməsindən kədərlənməyə başladığını sezdikdə, nədənsə, özümü itirirdim. Kaş elə əvvəlki kimi o, Daniyarla gülüb, zarafatlaşaydı. Bununla belə, gecələr ayıla dönərkən və Daniyarın mahnılarına qulaq asarkən məni onlar üçün qəribə bir fərəh bürüyürdü.

Dərədən keçərkən Cəmilə arabada gedirdi, stepə çıxan kimi arabadan düşüb piyada gedirdi. Mən də piyada gedirdim. Belə yaxşı idi! Həm gedirdim, həm də qulaq asırdım. Əvvəlcə hərə öz arabasının yanınca gedirdi, lakin irəlilədikcə özümüz də bilmədən Daniyara yaxınlaşırdıq. Bizi görünməz bir qüvvə ona tərəf çəkir, qaranlıqda onun sifətini, gözlərindəki ifadələri görmək istəyirdik. Görəsən, bu oxuyan, doğrudanmı, o adamdan qaçan, qaraqabaq Daniyardır!

Mən hər dəfə görürdüm ki, Cəmilə sarsılmış və həyəcanlı halda əlini ağır-ağır Daniyara tərəf uzadır. O isə bunu görmürdü, əllərini boynunun dalında çarpazlayaraq yırğa-

lana-yırğalana haraya isə yuxarıya, uzağa baxırdı, Cəmilənin əli də qeyri-ixtiyari arabanın şanı üstə düşürdü. Bu zaman o diksinir, əlini tez çəkərək dururdu. O, yolun ortasında dayanıb məyus, sarsılmış halda, Daniyarın arxasınca xeyli baxar və sonra yoluna davam edərdi.

Bəzən mənə elə gələrdi ki, biz Cəmilə ilə birlikdə eyni anlaşılmaz bir hissdən həyəcana düşmüşük. Bu hiss, bəlkə də, çoxdan bizim qəlbimizdə gizlənmişdi, bu gün isə o üzə vururdu.

İşləyəndə Cəmilə bunu birtəhər unudurdu, lakin bizim xırmanda ləngidiyimiz nadir istirahət dəqiqələrində o özündə olmurdu. Xırmansovuranların yanında veyllənir, onlara kömək edərək bir neçə kürək taxılı hündürdən sovurduqdan sonra birdən kürəyi tullayıb saman tayalarına tərəf çəkilirdi. Burada, kölgədə oturaraq, sanki, tənhalıqdan qorxduğu üçün məni səslərdi:

– Kiçinə bala, gəl buraya, oturaq!

Mən həmişə gözləyirdim ki, o, mənə nə isə mühüm bir şey deyəcək, nə üçün narahat olduğunu izah edəcəkdir. O isə heç bir şey demirdi. Başımı dinməz-söyləməz dizinin üstünə qoyur, gözlərini uzaqlara dikərək, cod saçlarımı qarışdırır, titrək hərarətli barmaqları ilə üzümü mehribanlıqla oxşayırdı. Mən aşağıdan yuxarı ona baxırdım, onun həyəcan və kədərlə dolu sifətində, elə bil, özümü görürdüm. Onu da nə isə üzürdü; içərisində nə isə toplanır, yetişir, çıxış yolu axtarırdı. O da bundan qorxurdu. O vurulduğunu həm deməyə, həm də deməməyə əzab çəkirdi. Mən də elə idim: onun Daniyarı sevməsini həm istəyir, həm də istəmirdim. Axı nə olursa olsun, o, mənim ata-anamın gəlini, qardaşımın arvadı idi!

Belə fikirlər ancaq bir anlığa məni araya alırdı. Mən onları özümdən qovurdum. O zaman mənim üçün əsl ləzzət Cəmilənin körpə dodaqları kimi yarıaçıq, həssas dodaqlarına, göz yaşları ilə dumanlanmış gözlərinə baxmaqdan ibarət idi. O, necə yaxşı, necə gözəl idi, sifəti necə parlaq vəcd ilə və ehtirasla parlayırdı! O zaman mən bütün bunları görür, lakin hamısını başa düşmürdüm. İndi də tez-tez öz-özümə sual verirəm: “Məhəbbət, bəlkə, rəssamın, şairin ilhamı kimi bir ilhamdır. Cəmiləyə baxarkən istəyirdim ki, stepə qaçıb hündürdən çığıraraq torpaqdan və səmadan

soruşum ki, mən nə edim, bu anlaşılmaz həyəcanı, bu anlaşılmaz fərəhi özümdən necə rəf edim. Deyəsən, bu dəfə mən bunun cavabını tapdım.

Biz, adət üzrə, stansiyadan gəlirdik. Gecə düşmüşdü, göydə ulduzlar topa-topa sayrışırdı, step yatmağa hazırlaşırdı. Təkcə Daniyarın mahnısı sakitliyi pozaraq, xəfif qaranlıq içərisində səslənir və əriyirdi. Cəmilə ilə mən onun arxasınca gedirdik.

Bu dəfə Daniyara nə olmuşdu? Onun mahnısında elə xəfif, təsirli bir kədər və yalqızlıq vardı ki, adamın ona ürəyi yanır, boğazı qəhərlənirdi.

Cəmilə başını əymiş və arabanın şanından möhkəm tutaraq gedirdi. Daniyar təzədən səsini zilə qaldıranda Cəmilə başını qaldırdı və gedə-gedə arabaya atılıb Daniyarın yanında oturdu. O, qollarını qoynunda çarpazlayaraq, elə bil, yerində donmuşdu. Mən yanaşı gedirdim, azca qabağa qaçaraq yan tərəfdən ona baxırdım. Daniyar yanında oturmuş Cəmiləni, elə bil, görməyərək oxuyurdu. Mən Cəmilənin qollarının yanına düşdüyünü və Daniyara qısılaraq başını yavaşca onun çiyninə qoyduğunu gördüm. Yorğa at qamçıdan diksinib, irəli sıçradığı kimi onun da səsi bir anlığa yeni qüvvə ilə gurladı. O, sevgi haqqında oxuyurdu.



Mən sarsılmışdım. Step, sanki, çiçəkləyib, ləpələndi, qaranlıq çəkildi və geniş stepdə iki sevgili gördüm. Onlar isə məni də görmürdülər, elə bil, mən burada heç yox idim. Mən addımlayır və onların yer üzərində hər şeyi unudaraq mahnının ahənginə uyğun olaraq birgə yırğalandıqlarına baxırdım. Mən onları tanıya bilmirdim. Bu, köhnəlmiş, yaxasıaçıq əsgər idman geyimi geymiş həmin Daniyar idi. Lakin onun gözləri qaranlıqda elə bil od tutub yanırdı. Ona qısılıb oturan da mənim Cəmiləm idi, lakin o, sakit və ürkək idi, kirpiklərində göz yaşı işıldayırdı. Bunlar yeni, həddindən artıq xoşbəxt adamlar idi. Məgər bu, xoşbəxtlik deyildimi? Axı Daniyar bütün bu ilhamverici mahnıları tamamilə ona həsr etmişdi, onun üçün oxuyurdu, onun haqqında oxuyurdu.

Məni yenə də həmişə Daniyarın mahnılarından gələn o anlaşılmaz həyəcan bürüdü. Birdən nə istədiyim mənim üçün aydın oldu. Mən onların şəklini çəkmək istəyirdim.

Mən öz fikirlərimdən qorxdum. Lakin arzum qorxudan güclü idi. Mən onları elə bu cür xoşbəxt çəkmək istəyirdim!

Bəli, elə bu cür, olduqları kimi! Lakin çəkə bilərəmmi? Qorxu və sevincdən nəfəsim tıxanırdı. Şirin bir xəyal aləminə qapılmışdım. Mən də xoşbəxt idim, çünki bu coşqun arzunun gələcəkdə mənim üçün nə kimi çətinliklər törədəcəyindən xəbərsizdim. Öz-özümə deyirdim ki, torpağı Daniyarın gördüyü kimi, görmək lazımdır, mən Daniyarın mahnısını rənglərlə nəql edəcəyəm, mənim şəklimdə də dağlar, step, adamlar, ot, buludlar, çaylar olacaqdır. Mən hətta o zaman fikirləşirdim: "Bəs rəngləri haradan tapım? Məktəbdə verməzlər, çünki onların özlərinə lazımdır!" Elə bil, bütün məsələ məhz bundan ibarətdir.

Daniyarın mahnısı gözlənilmədən kəsildi. Cəmilə ehtirasla onu qucaqladı və o dəqiqə də geri sıçrayıb bir anlığa duruxdu, sonra yana çəkilib arabadan yerə sıçradı. Daniyar qətiyyətsiz bir halda, cilovları çəkdi, atlar durdu, Cəmilə arxasını ona çevirərək yolda durmuşdu. Sonra başını kəskin bir hərəkətlə yuxarı qaldırıb, qanrılıb yandan ona baxdı və göz yaşlarını boğaraq dedi:

– Hə, niyə baxırsan? – deyib susdu və sonra acıqlı-acıqlı əlavə etdi: – Mənə baxma, yoluna düzəl! – O, öz arabasının yanına getdi. – Sən niyə gözlərini mənə zilləmisən? – deyə mənə də çığırdı. – Arabaya əyləş və cilovları əlinə al! Eh, siz də mənim başıma bəlasınız!

"Ona birdən-birə nə oldu?" – deyə mən atları qovaraq təəccüb edirdim. Ancaq burada təəccüblü bir şey yox idi: onun üçün çətin idi, axı onun qanuni əri vardı, özü də sağ-salamat, harada isə Saratovda hospitalda idi. Mən isə qəti olaraq heç bir şey haqqında fikirləşmək istəmirdim. Mənim Cəmiləyə, həm də özümə acığım tuturdu. Əgər bilsəydim ki, Daniyar daha oxumayacaq və mən daha onun səsini heç vaxt eşitməyəcəyəm, bəlkə də, Cəmiləyə nifrət edərdim.

Elə yorulmuşdum ki, bütün bədənim sızıldayırdı. Tez çatmaq və samanın üstünə yıxılıb yatmaq istəyirdim. Qaranlıqda yortan atların belləri yırğalanır, araba bərk silkələnir, cilovlar əlimdən sürüşürdü.

Xırmanda xamutları birtəhər çıxarıb arabanın altına atdım və saman tayasına yaxınlaşıb özümü üstünə yıxdım. Daniyar bu dəfə özü atları otarmağa apardı.

Səhər yuxudan oyanarkən qəlbimdə fərəh hissi duyurdum. Mən Cəmilə ilə Daniyarın şəklini çəkəcəkdim. Gözlərimi

qıyaraq Daniyarla Cəmiləni çəkəcəyim şəkildəki kimi təsəvvürümə çox aydın gətirdim. Mənə elə gəldi ki, indicə əlimə fırça və rəng alıb çəkə bilərəm.

Mən çaya tərəf qaçdım, yuyundum və buxovlanmış atların yanına cumdum. Yaş, soyuq yonca yalın ayaqlarımı bərkdən döyəcləyib isladır, cadar-cadar olmuş dabanlarımı dalayırdı, ancaq bu, mənə xoş idi. Mən qaçır və qaça-qaça, ətrafda baş verən hadisələri görürdüm. Günəş dağların dalından qalxırdı, arxın kənarında təsadüfən bitmiş günəbaxan günəşə tərəf boylanırdı. Ağpapaqlı kəkrələr onu möhkəm araya alsalar da, günəbaxan təslim olmurdu. Öz sarı dilləri ilə sübh şüalarını onların əlindən qapıb alır, özünün tumla dolu canlı zənbilini doyuzdururdu. Arxın üstündə araba çarxlarının açdığı cığırlara su dolur, budur, yasəmən rəngli adacıq, orada ətirli yarpız qurşağadək qalxmışdır. Mən doğma torpaqla qaçarkən başımın üstündə qaranquşlar ötüşərək uçuşurdular. Eh, bu səhər günəşini bu ağ-mavi dağları, bu şehli yoncanı və arxın qırağında bitmiş bu günəbaxanı çəkmək üçün rəng olsaydı!



Xırmana dönəndə kefim tamam pozuldu. Orada Cəmiləni gördüm. Onun sifəti uzanmış və qaşqabaqlı idi. Yəqin ki, gecəni yatmamışdı: gözlərinin altı kölgələnmişdi. O, mənə nə gülümsündü və nə də bir kəlmə söz dedi. Lakin briqadir Orozmat görünən kimi Cəmilə ona yaxınlaşdı və salamlaşmadan dedi:

– Götür, arabanı apar! Məni haraya istəyirsən, göndər, ancaq stansiyaya daha getməyəcəyəm.

– Camaltay, sənə nə olub, mozalan sancıb-nədir? – deyə Orozmat təəccübləndi.

– Mozalan danaların quyruğu altında olur! Məni sorğu-suala tutma. Dedim ki, istəmirəm, qurtardı getdi!

Orozmatın sifətindən təbəssüm çəkildi:

– İstəsən də, istəməsən də taxıl daşımalısan. – O, qoltuq ağacını yerə vurdu. – Əgər bir adam səni incidibsə de, bu qoltuq ağacı ilə onun boynunu sındıraram. Əgər belə deyilsə, axmaqlıq eləmə: sən əsgərlərə taxıl daşıyırsan. Öz ərin də oradadır, – o, öz qoltuqağacı üstə tullanıb döndü.

Cəmilə özünü itirdi, tamam qızarmış halda Daniyara tərəf baxdı, yavaşcadan köksünü ötürdü. Daniyar ondan bir az aralı, arxası ona tərəf duraraq, xamutun qayışını bərk-

dən çəkib dartışdırırdı. O, söhbəti başdan-ayağa eşitmişdi. Cəmilə əlində tutduğu qamçını əlləşdirərək hələ bir xeyli durdu, sonra əlini hirslə çırparaq öz arabasının yanına getdi.

Həmin o gün biz əvvəlkindən tez qayıdırdıq. Daniyar bütün yolboyu atları qovdu. Cəmilə tutqun idi, dinib-danışmırdı. Mən heç inanmırdım ki, qarşımda uzanan yanıb qaralmış stepdir. Axı o, dünən tamam başqa cürə idi. Elə bil, onun haqqında nağılda eşitmişdim və düşüncəmi qapamış xoşbəxtlik mənzərəsi başımdan heç cür çıxmırdı. Mənə elə gəlirdi ki, həyatın ən parlaq bir parçasını tutmuşam. Onu bütün təfərrüatı ilə təsəvvürümdə canlandırırdım və məni də təşvişə salan ancaq bu idi. Qapançıdan bir vərəq qalın kağız qoparmayınca sakit ola bilmədim. Tez ürəyim çırpına-çırpına tayanın dalına qaçdım və kağızı yolda xırmansovuranlardan çırpışdırdığım hamar kürəyin üstünə qoydum.

– Allah, sən özün kömək ol! – deyə vaxtıyla atam məni ilk dəfə ata mindirərkən dediyi kimi pıçıldadım və karandaşı kağıza toxundurdum. Bunlar ilk cəsarətsiz ştrixlər idi. Kağızda Daniyarın cizgiləri alınanda mən hər şeyi unutdum! Mənə artıq elə gəldi ki, həmin avqust gecəsinin stepi kağıza köçürülmüşdür, mənə elə gəldi ki, Daniyarın mahnısını eşidirəm, onun özünü başını dala atmış, sinəsi açıq halda görürəm, ona qısılmış Cəmiləni də görürəm. Bu, mənim ilk müstəqil rəsmim idi: bu, arabadır, bu da onlardır, bu, buraxılmış cilovlardır, qaranlıqda atların belləri yırğalanır, daha sonra step başlayır, uzaq ulduzlar görünür.

Mən elə aludəliklə çəkirdim ki, ətrafımda heç bir şeyi görmürdüm. Kimin isə səsi başımın üstündə eşidildikdə ayıldım.

– Sənə nə olub, eşitmirsən?

Bu, Cəmilə idi. Mən özümü itirib qızardım, şəkli gizlətməyə macal tapmadım.

– Araba çoxdan yüklənibdir. Bir saatdır ki, çığırırıq, eşitmirsən! Burada nə eləyirsən? Bəs bu, nədir? – deyə şəkli götürüb soruşdu. – Hm! – Cəmilə çiyinlərini hirslə çəkdi.

Mən yerə girməyə hazırdım. Cəmilə şəklə xeyli müddət baxdıqdan sonra kədərli, yaşlı gözlərini qaldırıb yavaşcadan dedi:

– Kiçinə bala, bunu ver mənə... Onu yadigar kimi saxlayacağam... – O, şəkli ikiqat büküb qoltuğunda gizlətdi.

Biz artıq yola çıxmışdıq, mən isə hələ də özümə gələ bilmirdim. Elə bil, bütün bunlar yuxuda olmuşdu. Heç inanmırdım ki, gördüklərimi şəkildə oxşada bilmişəm. Ancaq qəlbimin dərinliyində sadəlövh bir təntənə, hətta qürur, bir-birindən ötkəm, bir-birindən cazibədar xəyallar özünü göstərir və başımı gicəlləndirirdi. Artıq çoxlu müxtəlif şəkillər çəkmək istəyirdim, lakin karandaşla deyil, rənglərlə, boyalarla. Çox sürətlə getməyimizə də heç əhəmiyyət vermirdim. Daniyar atları sürətlə qovurdu. Cəmilə də ondan geri qalmırdı. O, ətrafına baxınaraq, hərdən, nədənsə təsirli və günahkarcasına gülümsəyirdi. Mən də gülümsəyirdim: demək, onun Daniyarla mənə daha hirsi tutmurdu və xahiş eləsəydi, Daniyar bu gün də oxuyacaqdı...



Stansiyaya əvvəlkindən xeyli qabaq çatdıq, əvəzində isə, atlar başdan-ayağa köpük içində idi. Daniyar çatar-çatmaz kisələri daşımağa başladı. Onun haraya tələsdiyini və ona nə üz verdiyini başa düşmək çətin idi. Yanımızdan qatarlar ötüb-keçəndə o, dalğın baxışları ilə uzun müddət onların dalınca baxırdı. Cəmilə də onun baxdığı tərəfə baxır, sanki, onun fikrindən nələr keçdiyini öyrənməyə çalışırdı.

– Buraya gəl, nal laxlayıb, kömək elə çıxardaq, – deyə o, Daniyarı səslədi.

Daniyar iki dizi arasında saxladığı atın dırnağından nalı çıxarıb belini düzəldəndə Cəmilə onun gözləri içinə baxaraq yavaşcadan dedi:

– Sənə nə olub, başa düşmürsən?.. Ya da dünyada tək mənəm?..

Daniyar üzünü dinməzcə yana çevirdi.

– Sən elə bilirsən ki, mənim üçün asandır? – Cəmilə köksünü ötürdü.

Daniyarın qaşları titrədi. Cəmiləyə məhəbbət və kədərlə baxaraq nə isə dedi. Lakin, o elə yavaşcadan dedi ki, mən eşidə bilmədim, sonra o, sürətli addımlarla, hətta, nədənsə, razı halda öz arabasına tərəf getdi. O gedə-gedə əlində tutduğu nalı sığallayırdı. Mən ona baxıb başa düşmürdüm ki, Cəmilənin sözləri ona nə cür təskinlik verə bilərdi. Əgər birisi dərindən ah çəkib: "Sən elə bilirsən ki, mənim üçün asandır", – deyibsə, burada nə təskinlik ola bilər.

Biz arabaları boşaldıb getmək istəyirdik ki, əynində əzik şinel, çiynində çanta olan arıq, yaralı bir əsgər həyətə daxil

oldu. Bundan bir neçə dəqiqə qabaq stansiyada bir qatar dayandı. Əsgər ətrafına baxınıb çığırdı:

– Burada Kurkureu ayılından adam varmı?

Mən onun kim olacağını fikirləşib cavab verdim:

– Mən Kurkureudanam.

– Sən kimsən, qardaş? – deyə əsgər mənə tərəf gəlmək istəyirdi ki, Cəmiləni görüb təəccüb və fərəhlə gülümsündü.

– Kərim, sənsən? – deyə Cəmilə səsləndi.

Əsgər ona tərəf yüyürüb, iki əli ilə Cəmilənin əlini sıxdı.

– Cəmilə, bacım!

Məlum oldu ki, o, Cəmilənin yerlisidir.

– Lap yerinə düşdü! Bilən kimi yolumu buradan saldım. – O, həyəcanla danışırdı. – Birbaşa Sadığın yanından gəlirəm. Hospitalda bir yerdə yatırdıq. Allah qoysa, bir-iki aya o da qayıdar. Ondan ayrılarkən dedim ki, arvadına məktub yaz, aparım... Budur, al, sağ-salamat gətirmişəm. – Kərim Cəmiləyə üçbucaq bir məktub uzatdı.

Cəmilə məktubu alıb qızardı, sonra ağappaq ağardı, ehtiyatla gözucu Daniyara baxdı. Daniyar o zaman xırmanda olduğu kimi, ayaqlarını geniş açaraq arabasının yanında tək-tənha durmuşdu. O, ümidsizliklə dolu gözləri ilə Cəmiləyə baxırdı.

Bu zaman hər tərəfdən adamlar tökülüşüb gəldi, dərhal əsgərin tanış və qohumları tapıldı, sorğu-sual başlandı. Cəmilə məktub üçün əsgərə minnətdarlıq etməyə macal tapmamışdı ki, Daniyarın arabası onun yanından gurultu ilə ötüb keçdi, sürətlə həyətdən çıxdı və çala-çuxurla silkələnə-silkələnə yolda tozanaq qopardı.

– O dəli olub, nədir! – deyə onun dalınca çığırdılar.

Əsgəri haraya isə dartıb aparmışdılar. Cəmilə ilə mən isə hələ də həyətin ortasında durub, uzaqlaşan toz buludlarına baxırdıq.

– Gedək, cene, – dedim.

– Sən get, məni tək burax, – deyə Cəmilə kədərlə cavab verdi.

Beləliklə, bütün bu müddət ərzində biz ilk dəfə olaraq yolu ayrı-ayrılıqda getdik. Boğanaq bürkü qurumuş dodaqlarımı yandırırdı. Bütün gün ərzində qızıb ağappaq olmuş yanıq cadar torpaq, indi, sanki, soyuyaraq şor bozartı ilə örtülürdü. Qürubda qərarsız, formasız günəş də elə bu cür

şor ağımtıl ilğım içərisində ləpələnirdi. Orada, tutqun üfüqün üstündə narıncı-qırmızı tufan buludları toplaşırdı. Şiddətli isti yel əsərək atların sifətlərini ağ ərplə örtür, yallarını darayaraq keçir, təpələrdəki yovşan kollarını əsdirirdi.

"Yoxsa yağış yağacaq?" – fikirləşdim.

Özümü evsiz-eşiksiz hiss edirdim, canımı həyəcan almışdı. Həmişə addımla getməyə cəhd edən atları qamçılayırdım. Uzunayaq arıq dovdaqlar həyəcanla haraya isə yarğana tərəf qaçırdılar. Səhra pıtrağının saralmış yarpaqları yola səpələnmişdi. Bizdə səhra pıtrağı olmurdu. Külək onları qazax torpaqları tərəfdən gətirmişdi. Günəş batırdı. Ətrafda heç kəs yoxdu. Yalnız bütün günü yorulub əldən düşmüş step idi.

Mən xırmana gələndə hava artıq qaralmışdı. Sakitlikdi. Külək yoxdu. Daniyarı səslədim.



– O, çaya getdi, – deyə keşikçi cavab verdi. – Görürsən, nə bürküdür, hamı evinə dağılışıb. Küləksiz xırmanda nə eləmək olar.

Atları otlamağa buraxdım, özüm isə çaya tərəf getdim. Mən sıldırımın üstündəki Daniyarın sevdiyi yeri tanıyırdım.

O, başını dizlərinə tərəf əyərək, belini büküb oturmuş və sıldırımın aşağısında çağlayan çaya qulaq asırdı. Mən yaxınlaşıb onu qucaqlamaq və ona yaxşı bir söz demək istəyirdim. Lakin nə deyə bilərdim? Bir az kənarda durub, geri döndüm. Sonra uzun müddət samanın üstündə uzanaraq qara buludlarla örtülən səmaya baxır və fikirləşirdim: "Həyat nə üçün belə anlaşılmaz və mürəkkəbdir?"

Cəmilə isə hələ də qayıtmamışdı. O, haraya gedə bilərdi? Mən bərk yorulmuşdum, ancaq yuxum gəlmirdi. Uzaqlarda, dağların üstündə qara buludların içərisiylə şimşək çaxırdı.

Daniyar gələndə mən hələ yatmamışdım. O, hərdənbir yola baxaraq boş-boşuna xırmanda gəzişdi. Sonra tayanın dalında, mənim yanımdaca samanın üstünə uzandı. "O daha ayılda qalmaz, lakin haraya gedə bilər?" Bir az sonra yuxunun içindən, ağır-ağır yaxınlaşan arabanın səsini eşitdim. Deyəsən, Cəmilə idi...

Nə qədər yatdığımı bilmirəm. Lakin birdən lap qulağımın dibində kimin isə addımları saman üstündə xışıldadı. Sanki, yaş bir qanad yavaşca çiynimə toxundu. Gözlərimi

açdım, Cəmilə idi. O, çaydan gəlirdi. Sərin, yaş paltarının suyunu sıxmışdı. O ayaq saxladı, ətrafına narahat halda baxındı və Daniyarın yanında yerə oturdu.

– Daniyar, mən gəldim, özüm gəldim, – sakitcə dedi.

Ətraf sükut içində idi, şimşək səssizcə aşağı şığıdı.

– İncidin? Çox incidin, hə?

Yenə sakitlikdi, yalnız yuyulmuş torpaq lopası xəfif bir şappıltı ilə çaya düşdü.

– Məgər mən günahkaram? Sən də günahkar deyilsən...

Uzaqlarda, dağların üzərində göy guruldadı. İldırımın işığı Cəmiləni yan tərəfdən işıqlandırdı. O dönüb arxasına baxdı və Daniyara qısıldı. Çiyinləri Daniyarın əlləri altında atılıb düşürdü. O, samanın üstündə Daniyarla yanaşı uzandı.

Yandırıcı külək stepdən əsərək samanı burub sovururdu, xırmanın qırağındakı yerindən oynayan alaçığı döyəcləyir və fırfıra kimi yolda vurnuxurdu. Qara buludlarda təzədən göy şüalar göründü və Daniyarla Cəmilənin başları üstündəki göy şaqqıltı ilə guruldadı. Həm dəhşətli və həm də fərəhli idi – axırıncı yay tufanı başlayırdı.

– Sən elə bilirdin ki, mən səni ona dəyişərəm? – deyə Cəmilə hərarətlə pıçıldayırdı. – Yox hey, yox! O heç vaxt məni sevməmişdir. Bircə salam göndərir, o da məktubun lap axırında. Onun gecikmiş məhəbbəti mənə lazım deyil! Qoy nə deyirlərsə, desinlər! Mənim əzizim, kimsəsizim, səni heç kəsə vermərəm! Mən səni çoxdan sevirdim. Səni tanımadıqda da sevir, səni gözləyirdim və elə bil, sən də bilirdin ki, gözləyirəm, gəldin!

Mavi şimşəklər bir-birinin dalınca çaxaraq, sıldırımın altında çaya şığıyırdı. Samanın üstünə düşən çəpəki soyuq yağış damcıları xışıldadı.

– Cəmiləm, Camaltay! – deyə Daniyar onu ən incə qazax və qırğız adları ilə pıçıltı ilə çağırırdı. – Üzünü mənə çevir, qoy gözlərinə tamaşa edim!

Tufan başladı.

Alaçıqdan qopmuş gecə parçası vurulmuş quş kimi qanadlarını çalaraq havada çırpınırdı. Yağış, elə bil, yeri öpürmüş kimi, şiddətlə tökməyə başladı, aşağıdan külək də döyəcləyirdi. İldırım çəpəkinə hərəkət edərək bütün

samanı dəhşətlə bürüdü. Baharda açan qızıl zanbaqlartək dağlardakı şimşəyin parlaq işıltıları yanıb söndü. Sıldırım dərədə külək qəzəblə uğuldayırdı.

Yağış tökürdü, mən isə samanın içinə girib uzanmışdım və hiss edirdim ki, əlimin altındakı ürəyim necə çırpınır. Mən xoşbəxt idim. Məndə elə bir hiss yaranmışdı ki, guya, xəstəlikdən sonra ilk dəfədir çıxıb günəşə baxıram. Yağış da, ildırımın işığı da samanın altında gizləndiyim yerə nüfuz edirdi. Ancaq mənim üçün xoş idi, yatır, gülümsəyir və başa düşmürdüm ki, bu səslər Daniyarla Cəmilənin pıçıltılarıdır, ya da kəsən yağış samanları xışıldadır.

Bundan belə yağışlar başlayacaq, tezliklə payız girəcəkdir. Havadan artıq yovşan və islanmış samanın rütubətli iyi gəlirdi. Payızda bizi nələr gözləyir? Bu barədə nədənsə düşünmürdüm.



Həmin payız ikiillik tənəffüsdən sonra çaya, sıldırımın üstünə gəlir və indi boş olan əvvəlki xırmanın yanında otururdum. Burada mən şagird rəngləri ilə özümün ilk etüdlərimi çəkdim. Hətta o zamankı anlayışıma görə, hamısı müvəffəqiyyətli olmurdu.

"Rənglər yaramır! Əgər əsl rənglərim olsaydı!" – O rənglərin necə olacağını təsəvvür edə bilməsəm də, bu sözləri öz-özümə deyirdim.

Yalnız xeyli sonra qurşun tübiklərdə olan əsl yağlı boyaları görmək mənə müyəssər oldu.

Rəng rəngdir, ancaq, hər halda, deyəsən, müəllimlər haqlı idi: rənglə işləməyi öyrənmək lazımdı. Lakin təhsil haqqında heç düşünə də bilməzdim. Qardaşlarımdan heç bir xəbər almayanda anam məni, özünün yeganə oğlunu, "iki ailənin cigitini və ailə dolandıranını" heç cür buraxmazdı. Bu haqda mən bir söz deməyə də cəsarət etmirdim. Payız isə tərslikdən elə gözəl idi ki, rəngi əlinə al, çək!

Soyuq sulu Kurkureu dayazlaşmışdı. Aşırımlardakı çılpaq qayaları tünd-yaşıl və narıncı rəngli yosun basmışdı. İlk soyuqlardan çılpaq, zərif söyüd pöhrənliyi qızarmışdı, lakin körpə qovaqlar isə hələ sarı möhkəm yarpaqlarını tökməmişdi.

İlxıçıların yağışda yuyulmuş hisli alaçıqları çaylaqda saralmış xoralıqda qaralırdı, alaçıqların təpəsindən göyə çalan ətirli tüstü burula-burula qalxırdı. Qıvraq ayğırlar

payızsayağı hündürdən kişnəyirdilər, anaları dağılışmışdı və indi artıq baharın özünədək onları ilxıda saxlamaq asan deyildi. Dağdan qayıdan mal-qara sürü ilə kövşənlərdə dolaşırdı. Bozaran gömgöy stepi tapdanmış cığırlar eninə-uzununa kəsmişdi.

Bir azdan səhra küləyi əsdi, göyün üzü tutuldu, qarın carçıları olan soyuq yağışlar tökdü. Bir dəfə mülayim bir gündə çaya getdim. Çayın dayazlaşdığı yerdə dağ quşarmudunun qırmızı kolu üzümə gülümsəyirdi. Mən dayaz yerin yaxınlığında söyüd pöhrənliyində oturdum. Axşam düşürdü. Birdən iki adam gördüm, hər şey məlum idi ki, onlar çayı dayaz yerdən keçmişdilər. Bunlar Daniyar və Cəmilə idi. Mən gözlərimi onların sərt və həyəcanlı sifətlərindən çəkə bilmirdim. Ciyində əşya çantası olan Daniyar tələsik addımlayırdı, yaxası açıq şinelinin ətəkləri didilmiş uzun çəkmələrinin boğazlıqlarına dəyib şappıldayırdı. Cəmilənin başına bağladığı ağ yaylıq boynuna düşmüşdü, əyninə özünün ən yaxşı güllü paltarını geymişdi (bu paltarla o, bazarda özünü çəkib gəzməyi sevirdi). Paltarının üstündən miləmil məxmərdən tikilmiş sırıqlı jaket geymişdi. Bir əlində kiçik bir bağlama var idi, o biri əli ilə isə Daniyarın çantasının ucundan tutmuşdu. Onlar gedə-gedə nə haqda isə danışırdılar.

Budur, onlar cığırla, çiya kolluqları ilə örtülü dərədən keçib getdilər. Mən onların arxasınca baxaraq nə edəcəyimi bilmirdim. Bəlkə, onları səsləyim? Lakin dilim, elə bil, quruyub damağıma yapışmışdı.

Axırıncı qırmızı şüalar dağlar boyunca sürətlə ötən ala buludların üzəri ilə sürüşdü və qaranlıq dərhal çökməyə başladı. Daniyarla Cəmilə arxalarına baxmadan dəmiryolu razyezdinə gedirdilər. Onların başları çiya pöhrəlikləri içərisində bir-iki dəfə də göründü və sonra gözdən itdi.

– Cəmi-lə! – deyə mən bütün gücümlə çığırdım.

“A-a-a”! – səsim gedib çatmayaraq əks-səda verdi.

– Cəmi-lə-ə! – deyə mən bir də çığırdım və özüm də bilmədən çayın içi ilə onların dalınca qaçmağa başladım.

Buz kimi soyuq su üzümə sıçrayırdı, paltarım islanmışdı, mən isə ağına-bozuna baxmadan yüyürürdüm. Birdən ayağım nəyə isə ilişdi, gumbultu ilə yerə gəldim. Başımı qaldırmadan uzanmışdım və göz yaşlarım üzümü

islatmışdı. Qaranlıq, elə bil, çiyinlərimə çökmüşdü. Çiyanın möhkəm budaqları incə-incə kədərlə səslənirdi.

– Cəmilə! Cəmilə! – deyə mən göz yaşları tökə-tökə boğularaq hıçqırırdım.

Mən ən əziz və yaxın adamlarımdan ayrılırdım. Yalnız indi, torpağın üstündə uzanıb qalarkən başa düşdüm ki, Cəmiləni sevirəm. Bəli, bu, mənim ilk uşaqlıq məhəbbətim idi.

Mən başımı yaş dirsəklərimin üstünə qoyaraq xeyli uzandım. Mən nəinki Cəmilə ilə Daniyardan, öz uşaqlığımdan da ayrılırdım.

Qaranlıqda evə çatanda həyətdə çaxnaşma vardı, üzəngilər cingildəyirdi, kim isə atları yəhərləyirdi, sərxoş Osman isə atın üstündə yırğalanaraq boğazı yırtıldıqca çığırırdı:

– Bu azmış, nacins iti aildən çoxdan qovmaq lazım idi.

Bütün nəsli biabır elədi! Əgər əlimə düşsə, elə oradaca öldürəcəyəm. Qoy mühakimə eləsinlər. Mən yol vermərəm ki, hər səfil gəlib bizim arvadları aparsın. Haydı, cigitlər, yəhər üstünə. Heç yerə qaçıb qurtara bilməz, stansiyada ona çatarıq!

Bədənimi titrətmə bürüdü. Onlar haraya çapacaqlar? Lakin onların böyük yolla stansiyaya yox, razyezdə çapdıqlarını yəqin etdikdən sonra gizlincə evə keçdim və göz yaşlarımı gizlətmək üçün atamın kürkünü geyib başımı içində gizlətdim.

Aildə hərə bir söz deyirdi. Arvadlar bir-birinin sözünü kəsərək, Cəmiləni təqsirləndirirdilər:

– Axmaqdır! Öz səadətini tapdalayıb, belə bir ailədən getdi!

– Bir dayan, onun nəyinə aşiq olub? Vur-tut bir şineli var, bir də yırtıq çəkmələri!

– Əlbəttə, nəyi var ki! Əsil-nəcabəti olmayan səfil, avara bir adamdır, əynində nə varsa, elə odur. Zərəri yoxdur, bizim gözəl bir vaxt özünə gələcək, ancaq o zaman iş işdən keçmiş olacaqdır.

– Məsələ də elə orasındadır! Bir ər kimi, evdar bir kişi kimi Sadığın nəyi pisdir? Ayılda birinci cigitdir!

– Bəs qayınanası? Belə qayınana hər adama qismət olmur! Belə baybiçədən heç yerdə tapmaq olmaz! Səfeh qız heç nəyin üstündə özünü məhv etdi!

Bəlkə də, təkcə mən Cəmiləni, öz keçmiş cenemi məzəmmət etmirdim. Nə olsun ki, Daniyarın şineli köhnə, ayaqqabıları yırtıqdır, axı mən bilirdim ki, mənəvi cəhətdən o, bizim hamımızdan zəngindir. Yox, heç inanmırdım ki, Cəmilə bədbəxt olacaqdır. Yalnız anama yazığım gəlirdi. Mənə elə gəlirdi ki, Cəmilə ilə birlikdə onun qüvvəsi də getmişdir. Onu kədər bürümüş, rəngi-ruyu qaçmışdı. İndi başa düşdüyüm kimi, o, bəzən həyatın köhnə qayda-qanunları belə amansızcasına pozması ilə barışa bilmirdi. Əgər qocaman bir ağacı tufan kökündən çıxarıb atırsa, o bir daha dikəlməz. Əvvəllər anam iynəni saplamağı heç kəsdən xahiş etməzdi: şəninə sığışmazdı. Ancaq bir dəfə məktəbdən qayıdarkən anamın əllərinin əsdiyini gördüm, o, iynənin deşiyini görmədiyi üçün ağlayırdı.

– İynəni sapla! – deyə məndən xahiş etdi və köksünü dərindən ötürdü. – Cəmilə məhv olacaq... Eh, o ailədə yaxşı evdar qadın olacaqdı! Getdi... üz döndərdi... Axı niyə getdi? Bizdə məgər onun üçün pis keçirdi?..

Mən anamı qucaqlayıb onu sakitləşdirmək istəyirdim, ona danışmaq istəyirdim ki, Daniyar necə adamdır. Ancaq bacarmırdım. Bununla onu bütün həyatı boyu təhqir etmiş olardım.

Bununla belə, mənim bu əhvalatdakı günahsız iştirakım bir sirr olaraq qalmadı...

Çox keçmədi ki, Sadıq qayıtdı. Əlbəttə, o əzab çəkirdi. Bununla belə, sərxoş olanda Osmana deyirdi:

– Gedibsə, qoy getsin. Bir yerdə gəbərib qalacaqdır. Bizim zəmanədə arvad çox tapmaq olar. Hətta zərrinsaçlı qadınlar belə qotur bir oğlana dəyməz.

– Lap doğrudur! – deyə Osman cavab verirdi. – Bir şeyə təəssüf edirəm ki, o əlimə düşmədi, elə oradaca öldürüb işini bitirərdim. Cəmiləni isə saçlarından atın quyruğuna bağlardım. Onlar ya cənuba pambıq yığmağa gediblər, ya da qazaxların yanına qaçıblar, o, səfilliyə öyrəşmişdir. Ancaq heç başa düşmürəm ki, bu, necə oldu. Heç kəsin xəbəri yoxdu və heç kəsin də ağlına gəlməzdi. Bütün bunları o alçaq Cəmilə özü düzəldib! O bir əlimə düşəydi!..

Bu sözləri eşidərkən Osmana demək istəyirdim ki, ot biçinində sənin dərsini necə verdiyini yadından çıxara bilmirsən. Alçağın biri alçaq!

Bir dəfə evdə oturub məktəb divar qəzeti üçün nə isə çəkirdim. Anam sobanın yanında əlləşirdi. Birdən Sadıq içəri girdi. Rəngi ağappaq ağarmış, gözləri qəzəblə qıyılmışdı. O, yanıma gəlib əlindəki kağız vərəqini gözlərimin qabağına tutdu.

– Bunu sən çəkmisən?

Məəttəl qaldım. Bu, mənim ilk şəklim idi. Daniyar və Cəmilə canlı adam kimi mənə baxırdılar.

– Mən çəkmişəm.

– Bu, kimdir? – deyə o, barmağını kağızın üstünə qoydu.

– Daniyar.

– Xain! – deyə Sadıq üstümə çığırdı.

O, şəkli parça-parça doğrayıb tökdü və qapını şiddətlə çırpıb getdi.

Xeyli çəkən üzücü sükutdan sonra anam soruşdu:



– Sən bilirdin?

– Bəli, bilirdim.

O, sobaya söykənərək mənə elə məzəmmət və heyrətlə baxırdı ki! Mən ona: "Onları yenə də çəkəcəyəm!" – dedikdə o, kədərli və taqətsiz halda başını buladı.

Mən döşəməyə səpələnmiş kağız parçalarına baxaraq hirsimdən boğulurdum. Qoy məni xayin adlandırsınlar, kimə xəyanət etmişəm? Ailəmə? Nəslimizə? Lakin mən həqiqətə, həyat həqiqətinə, bu iki adamın həqiqətinə xəyanət etməmişəm! Mən heç kəsə bu haqda deyə bilmirdim, desəydim, hətta anam da məni başa düşməzdi.

Gözlərimin qabağında hər şey bir-birinə qarışmışdı. Kağız parçaları, elə bil, canlılar kimi döşəmənin üstündə hərlənirdi. Yaddaşımda Daniyarla Cəmilənin şəkildən mənə baxdıqları həmin an canlandı, o zaman mənə elə gəlmişdi ki, Daniyarın həmin avqust gecəsində oxuduğu mahnını eşidirəm. Onların ayıldan getmələrini xatırladım. Mən də onlar kimi yola, səadət dalınca ağır yola cəsarət və inamla çıxmaq istəyirdim.

– Mən oxumağa gedəcəyəm... Atama deyəcəyəm. Rəssam olmaq istəyirəm! – deyə mən qətiyyətlə anama dedim.

Mən arxayın idim ki, o, məni danlayacaq, cəbhədə həlak olmuş qardaşlarımı xatırlayıb ağlayacaqdır. Lakin təəccüblüdür ki, ağlamadı. Yalnız kədərli halda sakitcə dedi:

– Get... Siz lələklənmişsiniz və özünüzə görə də qanad çalırsınız... Haradan bilək, uzağamı uçacaqsınız? Bəlkə, siz haqlısınız. Get... Bəlkə, orada fikrini dəyişdin. Şəkil çəkmək, rəngləmək bir sənət deyil... Oxuyarsan, görərsən... Öz evini də yaddan çıxarma.

O vaxtdan Kiçik ev bizdən ayrıldı. Çox keçmədi ki, mən də oxumağa getdim.

Bütün əhvalat da bundan ibarətdir.

Rəssamlıq məktəbindən sonra məni akademiyaya göndərdikdə öz diplom işimi təqdim etdim. Bu, çoxdan bəri haqqında düşündüyüm tablo idi.

Bu tabloda Daniyarla Cəmiləni tanımaq çətin deyildi. Onlar payız step yolu ilə gedirdilər. Qarşılarında geniş, parlaq mənzərə açılmışdı.

Qoy mənim tablom mürəkkəb olmasın, sənətkarlıq birdən-birə yaranmır, lakin o, mənim üçün çox qiymətlidir, o, mənim ilk şüurlu yaradıcılıq təlaşımdır.

İndi də müvəffəqiyyətsiz əsərlərim olur, elə ağır dəqiqələrim olur ki, özümə inamı itirirəm. O zaman mənə doğma olan bu tablo, Daniyar və Cəmilə məni özlərinə cəlb edir. Onlara uzun müddət baxır və hər dəfə onlarla söhbət edirəm.

İndi siz haradasınız, hansı yollarla addımlayırsınız? İndi bizim stepdə çoxlu təzə yollar vardır. Bu yollar bütün Qazaxıstanı dolaşır, Altaya və Sibirədək uzanır. Bəlkə, siz də o ölkələrə gedib çıxmısınız! Sən, Cəmiləm, arxana baxmadan geniş steplə getdin. Bəlkə, sən yorulmusan, bəlkə, özünə inamı itirmişsən? Daniyara sığın! Qoy o, sevgi haqqında, torpaq haqqında, həyat haqqındakı mahnısını sənə oxusun. Qoy step rəngdən-rəngə düşsün, dalğalansın! Qoy o avqust gecəsi yadına düşsün! Get, Cəmilə, peşman olma, sən öz çətin səadətini tapmısan!

Mən onlara baxır və Daniyarın səsini eşidirəm. O, məni yola-səfərə çağırır, demək, yığışmaq vaxtıdır. Mən steplə öz ayılıma gedəcəyəm, mən orada yeni rənglər tapacağam.

Qoy yaxdığım hər bir rəngdə Daniyarın mahnısı səslənsin! Qoy yaxdığım hər bir rəngdə Cəmilənin ürəyi vursun!